**AB Standard QSC**
Oruc Heydərov – Prezident
Tel: (012) 4371748/50
Faks: (012) 4932511
E-mail: office@abstandard.com
Ünvan: Azərbaycan pr-ti 4
“AB Standard” Şirkətlər Qrupu Azərbaycanda milli özəl kapitalı təmsil edən ən böyük maliyyə-sənaye qruplarından biridir. Hazırda “AB Standard” Qrupu çoxsaylı müəssisələri ilə müxtəlif sahələrdə təmsil olunur və ölkə iqtisadiyyatının inkişafında fəal rol oynayır. Qrupa maliyyə, sənaye, ticarət, tikinti, turizm və digər sahələrdə fəaliyyət göstərən 10 şirkət və müəssisə daxildir. “AB Standard” Qrupuna eyniadlı idarəetmə şirkəti başçılıq edir.

**"AGT MMTX" MMC**
A. Murat Türkoğlu - Direktor
Tel: (012) 5643486 /87
Faks: (012) 5643488
E-mail: office@agt.az
Ünvan: Y.Vəzir Çəmənzəminli küç. 35A/53
AGT Menecment Məsləhət və Tikinti xidmətləri MMC 2006-cı ildə körpü, aeroport və yol tikintisi əsasında yaradılmışdır. 2007-ci il Yanvar ayında AGT Treydinq öz fəaliyyətini satış və marketinq xidmətləri ilə başlamış və sonradan KOMATSU tikinti texnikalarının satışını və satış sonrası xidmətini göstərməyə başlamışdır. Hal hazırda da AGT Treydinq MARUBENİ KORPORASİYASI ilə əlaqələri davam etdirərək KOMATSU tikinti texnikalarının satışını və servisini Azərbaycanda həyata keçirməkdədir.
Digər bir tərəfdən isə AGT Treydinq 2008-ci il iyun ayından etibarən ÇUKUROVA HOLDİNQin qolu olan Çukurova Generatorlarının da rəsmi nümayəndəsi olaraq Azərbaycanda fəaliyyət göstərir. Satış və servisini həyata keçirməkdədir.
**www.agt.az**

**AKAT Inşaat MMC**
Kenan Köse – Baş Direktor
Tel: (012) 5980874
Faks: (012) 5980875
E-mail: akat@azerin.com
Ünvan: Nizami küç.137, bina 22
AKAT İnşaat MMC 2004-cü ildən tikinti sahəsində fəaliyət göstərən və az müddət olmasına baxmayaraq özünü doğrultmuş bir şirkətdir. Şirkətin tikinti sahəsində gördüyü işlər sırasına - Sanqaçal Qaz doldurma məntəqəsində inşaat işləri, Sanqaçal Qaz doldurma məntəqəsi abadlıq işləri, Azelektroterm zavodu makina təməl inşaatı, Qraund Həndlinq Kompani MMC - Heydər Əliyev adına Beynəlxalq Aeroportunun sərnişin terminalındakı biznes klass otaqlarının təmiri, Heydər Əliyev adına Beynəlxalq aeroportunda AVK-nın «Şimal» və «Cənub» terminallarında tikilmiş ofis otaqlarının tamamlama işləri, Azelektroterm zavodu laboratoriya binası inşaatı, Teymur Əliyev küçəsində 2 ədəd villa inşaatı, Moldova Giurgiuleşti Serbest bölgə inşaatı, Gəncə Alüminium smelter inşaat sahəsinin torpaq işləri, Gəncə Alüminium smelter təməl atma ilə əlaqədar işlərin görülməsi, Novxanı villa inşaatı daxildir.

**Akgün Yazılım**
Musa Karakuzu – Direktor
Tel: (012) 464 42 44 / 45
Faks: (012) 464 42 46
E-mail: musa.karakuzu@akgunyazilim.com.tr
Ünvan: Xocalı pr. 55, 13-cü mərtəbə
Akgün Bilgisayar Proqram ve Hizmetleri Sanayi Ticaret Limited Şirkəti Türkiyə Respublikasında 25.11.1986–cı ildə dövlət qeydiyyatından keçmişdir. Türkiyə Respublikasında proqramlaşdırma sahəsində müvafiq kadrların tədrisi, bələdiyyə avtomatlaşdırması, həmçinin 160 xəstəxana, laboratoriya, klinikalarda, səhiyyənin bütün sahələrində və layihələri ilə proqram sektorunda Türkiyədə ən böyük, Avropada isə üç böyük şirkətlərdən biridir. Türkiyə Respublikasında proqram sektorundakı 22 illik təcrübəyə malik qabaqcıl şirkətlərdən olan Akgün Yazılımın ilk xarici nümayəndəliyi 27 aprel 2007 - ci ildən Bakı şəhərində fəaliyyətə başlamışdır.
Şirkət İSO 9001, OHSAS 18001 beynəlxalq keyfiyyət sertifikatlarına malikdir. Azərbaycanda fəaliyyətə başladığımız vaxtdan etibarən şirkət Azərbaycan Respublikası Səhiyyə Nazirliyi və bir neçə dövlət və özəl klinikalar üçün avtomatlaşdırma və informasiya-tədris layihəli proqramların icrasını həyata keçirmişdir. Eyni zamanda, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi ilə çalışmalar davam etməktədir.
Şirkətin Türkiyə Respublikasının Trabzon, Ankara şəhərlərində ofisləri, Qazaxıstanın paytaxtı olan Astana şəhərində ofisi mövcuddur. Bununla yanaşı, digər Türk Cumhuriyyətləri və Suriya, Livan, İordaniya, Səudiyyə Ərəbistanı, Sudan kimi Şərq ölkələri və Afrika ölkələriylə çalışmalar davam edir.
**www.akgunyazilim.com.tr**

**“Albatros Heltkeyr” MMC**
Lütfi Ercan Günalp – Təsisçi
Tel: (012) 4989537
Faks: (012) 4943568
E-mail: albatroshealthcare@gmail.com
Ünvan: Bəşir Səfəroğlu 199

“Albatros Heltkeyr” MMC 08.07.2005-ci il tarixində yaradılıb. Amerikanın “ABBOTT Laboratories” şirkətinin Azərbaycanda rəsmi distribyutoru kimi fəaliyyət göstərir. Şirkətin əsas məqsədi klinikalar və laboratoriyalar üçün bütün lazımi avadanlıqların ixracından ibarətdir. AXSYM, CD 1800, CD 3700 SL, ARCHITECT– İ200, C-800, Cİ 8200 kimi bir çox tibb mərkəzlərində qan analizatorları quraşdırılıb.
Bundan əlavə, “Azər-Türk Med” MMC-nin laboratoriyasının qurulmasında yaxından iştirak etmiş və laboratoriyanın tam təhcizatını təmin edib.
“Albatros Heltkeyr” MMC respublikamızda keçirilən səhiyyə sərgilərində də iştirak edir. 2005-2007–ci illərdə keçirilən Beynəlxalq Səhiyyə Sərgisində “ABBOTT Laboratories” şirkətinin istehsal etdiyi müasir laboratoriya avadanlıqları şirkətimiz tərəfindən sərgilənib.
Sabirabad şəhərində “Muğan Klinik” Diaqnostik Mərkəzinin müasir tibb avadanlığı ilə tam təhcizatına görə “Albatros Heltkeyr” MMC “İntellekt – İlin lahiyəsi” mükafatına layiq görülüb.
Bu gün şirkətin personalı 10 nəfərdən ibarətdir. Onların 3 nəfəri texniki servis şöbəsinin mütəxəssisləridir. Bu mütəxəssislər “ABBOTT Laboratories” şirkəti tərəfindən təşkil olunmuş kurslarda təhsil almış və sertifikatlarla təltif olublar.
Şirkətimiz 2006 və 2007-ci illərdə Türkiyə və Almaniyaya 30-a yaxın respublika həkimləri üçün VİP turlar təşkil edir. Bu turlarda həkimlər “ABBOTT Laboratories” şirkətinin və digər müasir klinikaların laboratoriyalarının təşkili və iş standartları ilə yaxından tanış olublar.

**"Aqrarkredit" Səhmdar Kredit Təşkilatı**

Məmməd Musayev – İdarə Heyətinin sədri
Tel: (012) 5982730/31
Faks: (012) 5982731
E-mail: aqrarkredit@aqrarkredit.az
Ünvan: Qədirli, 125

"Aqrarkredit" Səhmdar Kredit Təşkilatı Səhmdarlarının Ümumi Yığıncağının 17 aprel 2001-ci il tarixli qərarı ilə Səhmdar Kommersiya Aqrar-Sənaye Bankının təşkilatı hüquqi forması saxlanmaqla onun bazasında yaradılmış, sonradan Respublika Nazirlər Kabinetinin 09 oktyabr 2003-cü il tarixli 195S saylı Sərəncamına əsasən yenidən təşkil edilmişdir.

Milli Bankın lisenziyasına əsasən «Aqrarkredit» Səhmdar Kredit Təşkilatına aşağıdakı göstərilən əməliyyatları aparmaq hüququ verilmişdir:

- Kənd təsərrüfatı sahələrində və kənd yerlərində fəaliyyət göstərən şəxslərə, o cümlədən kredit ittifaqlarına kreditlər vermək;
- Kredit xidməti göstərilmiş şəxslərə hesablar açmaq və onların hesabları üzrə əməliyyatlar aparmaq;
- Kredit xidməti göstərilmiş şəxslərin pul vəsaitini, veksellərini, ödəniş və hesablaşma sənədlərinin inkassasiya etmək və onlara hesablaşma-kassa xidməti göstərmək;
- Xidmət göstərilən müştərilərin tapşırığı ilə daxili valyuta bazarında xarici valyutanı almaq və satmaq;
- Beynəlxalq maliyyə təşkilatlarının, dövlətlərarası sazişlər üzrə donor dövlətlərinin, habelə Azərbaycan Respublikası Hökumətinin aqrar sahənin inkişaf etdirilməsi layihələri üzrə agent funksiyalarını icra etmək.

***Layihələr üzrə işlər. Kənd Yerlərinin Kreditləşdirilməsi Proqramı.*** Kredit Təşkilatı ölkənin kənd təsərrüfatı məhsulları istehsalçılarının kreditə olan ehtiyacını ödəmək, ixrac əhəmiyyətli məhsulların istehsalını artırmaq üçün aparıcı sahələri müəyyənləşdirərək Kənd yerlərində həmin sahələrin maliyyələşdirilməsini həyata keçirir. Bu xətlə Aqrar kreditin öz vəsaiti hesabına verilən kreditlər qısa müddətli 24 aya qədər, uzun müddətli isə 60 ayadək müddətə verilir. Bu proqram üzrə kreditin orta illik faizi Kredit İttifaqlarına və borcalan qruplarına 21%-lə, kənd təsərrüfatı məhsulu istehsalı, emalı, tədarükü, ticarət və diqər sahələrə 24% nəzərdə tutulmuşdur. Bununla yanaşı göstərilən xidmətlərə görə kreditin 1%-i həcmində qiymətləndirmə haqqı alınır. Kreditlər borc məbləğin ən azı 150%-i həcmində girov təminatı ilə təmin edilməlidir. 01.12.2009-cu il tarixinə portfel 1332 müştəri üzrə 8.8 mln. manatdan ibarətdir. «Aqrarkredit» üzrə 01 dekabr 2009-cu il vəziyyətinə ödəniş əmsalı 93,8% olmuşdur. Bu proqram üzrə kreditlərin verilməsi Kredit Təşkilatının öz sərbəst vəsaitləri hesabına həyata keçirilir. «Aqrarkredit» SKT 2009-cu ildə ümumi məbləği 11.5 mln. manat olan kredit verilməsini planlaşdırır.

***Dünya Bankının keçmiş "Təsərrüfatların Özəlləşdirilməsi Layihəsi" çərçivəsində verilmiş kreditlərin geri qaytarılması həyata keçirilir.*** 01 dekabr 2009-cu il tarixinə bu layihələr üzrə kredit portfeli 798 müştəri üzrə 2,0 mln. manat olmuşdur.

***"Sahibkarlığa Kömək Milli Fondu".*** Aqrarkredit 2004-cü ildən "Sahibkarlığa Kömək Milli Fondu"nun müvəkkil Kredit Təşkilatıdır. Hökumət tərəfindən təsbit edilən kredit şərtləri Azərbaycan bank sahəsi üçün çox sərfəlidir; Kreditlərə görə əvvəllər illik 7%, indi isə illik 6% tətbiq edilir; kredit müddəti 1,5 ildən 5 ilə qədərdir; Kreditlərin istifadə müddətinin ilk 2/3 dövründə güzəşt müddəti müəyyən edilir. Bu güzəşt müddətində yalnız faiz borcları ödənilir. Kreditlər kredit həcminin ən azı 150%-li dəyərində girov təminatı ilə təmin edilməlidir. SKMF-dan ayrılan vəsaitlər üçün Aqrarkredit Fonda illik 1% haqq ödəyir. 01 dekabr 2009-cu il tarixə SKMF üzrə kredit portfeli 310 müştəri üzrə 4,5 mln. manat olmuşdur. 2009-cu ildə SKMF xətti ilə 1.5 mln. manat kredit verilməsi proqnozlaşdırılmışdır.

***"Şimal-Şərq İnkişaf Layihəsi".*** Kənd Təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Fondun (KTİBF) maliyyələşdirdiyi Azərbaycan Respublikasında "Şımal-Şərq İnkişaf Layihəsi"nin icrası üçün

Maliyyə Nazirliyi (MN) ilə razılaşdırılmaqla Kənd Təsərrüfatı Nazirliyi (KTN) yanında Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyi (KTKDA) və "Aqrarkredit" Səhmdar Kredit Təşkilatı arasında 02 iyun 2007-ci il tarixdə əlavə kredit müqaviləsi bağlanmışdır. Bu müqaviləyə əlavə və dəyişikliklər edilərək 31 iyul 2009-cu il tarixdə yenidən bağlanmışdır. Bu layihə üzrə 2009-cu ildə 384.0 min manat kredit verilməsi nəzərdə tutulmuşdur. 01 dekabr 2009-cu il tarixinə "Şımal-Şərq İnkişaf Layihəsi" üzrə 331.7 min manat kredit verilmişdir. Bu layihə üzrə 01 dekabr 2009-cu il tarixinə kredit portfeli 120 müştəri üzrə 319.4 min manatdir.

***Lizinq xidməti.*** Kənd Təsərrüfatı Nazirliyi kənd təsərrüfatı məhsullarının istehsalını artırmaq üçün 1997-ci ildən Yaponiya Hökuməti tərəfindən Qrant vəsaiti hesabına alınmış kənd təsərrüfatı texnikası proqramına başlamışdır. Kənd Təsərrüfatı Nazirliyi kombayn, traktor, toxum səpən maşınlar, şumlama və digər fermer təsərrüfatı avadanlıqlarını alaraq, onları Aqrarkreditlə birlikdə ölkənin hər bir yerində öz dəyərinə və 4 illik ödəniş cədvəli ilə özəl sahibkarlara lizinq qaydasında icarəyə vermişdir. Nazirlər Kabinetinin qərarına müvafiq olaraq 2005-ci ildən etibarən yeni alınmış texnika 6 il müddətinə icarəyə verilir. Proqram başlanandan (1998-ci ildən) cəmi 773 texnika 307 müştəriyə icarəyə verilmişdir. Texnikanın ümumi dəyəri 13.0 mln. manatdır. 01 dekabr 2009-cu ilədək 8,57 mln. manat məbləğində icarə haqqı toplanaraq Nazirlər Kabineti tərəfindən idarə edilən Tərəfdaşlıq Fonduna köçürülmüşdür. 2007-ci ildə Tərəfdaşlıq Fondunun vəsaitləri hesabına 3.9 mln. manat məbləğində 353 adda müxtəlif kənd təsərrüfatı texnikası alınaraq 01 dekabr 2009-cu il tarixədək 287 adda texnika icarəyə verilmişdir. 01 dekabr 2009-cu il tarixinə lizinq portfeli 1126 texnika üzrə 5,3 mln.manat olmuşdur.

***Problemli borcların idarə edilməsi üzrə.*** Hökumətin müvafiq sərəncamına əsasən ləğv olunmuş 3 dövlət bankının bütün borcları Aqrarkreditdə cəmləşdirilmişdir. Bu kreditlər əsasən müstəqillik əldə edildikdən sonra həm dövlət, həm də özəl hüquqi şəxslərə verilən kreditlərdir. 2009-cu ildə Aqrarkredit 2039 borclu ilə iş aparmış, 2009-cu ilin 11 ayı ərzində 221.8 min manat məbləğində vəsaitin toplanmasına nail olmuşdur. 01 dekabr 2009-cu il tarixinə kredit portfeli isə 52.3 mln. manatdır.

***Maliyyə nəticələri.*** Kredit Təşkilatı 2009-ci ilin 11 ayı ərzində 3905,9 min manat gəlir əldə edilmiş, 3550.4 min manat xərc aparmış nəticədə 355.5 min manat mənfəət qazanmışdır. 2009-cu ildə 5.5 mln. manat gəlir, 4.3 mln. manat xərc, 1.2 mln. manat mənfəət əldə olunması nəzərdə tutulmuşdur.

***Audit.*** "Aqrarkredit" Səhmdar Kredit Təşkilatının 2008-ci ildəki fəaliyyətinin auditi Beynəlxalq audit təşkilatı olan "Baker Tilly Azerbaycan LLC" tərəfindən aparılmışdır.

***Hesablaşmalar.*** "Aqrarkredit" Səhmdar Kredit Təşkilatında Baş Ofis və filialların real vaxt rejimində (on-line) işləməsini təmin edən məlumat-informasiya sistemi qurulmuş, beynəlxalq hesablaşmalar sistemi S.W.İ.F.T və Xırda Ödənişlər Hesablama Klirinq Sistemindən (XÖHKS) istifadə edilir.

***Texniki yardım.*** Aqrarkreditə 2004-2008-ci illərdə Avropa Birliyinin Layihələri üzrə "Texniki Yardım" göstərilmişdir

**www.aqrarkredit.az**

**Arjen Mühendislik və Dış Ticaret Ltd.**

Murat Negiz - Direktor
Tel: (012) 493 17 55
Faks: (012) 493 96 15
Ünvan: R.Behbudov 16, mənzil 32

Arjen Mühəndislik ölkə və ölkə xaricində elektrik və enerji sistemləri sahəsində elektrik quraşdırma işləri sahəsində fəaliyyət göstərir. Bu sahədə Arjen Mühəndislik dəyərli bir keçmişə malik olub, gənc və bacarıqlı işçiləri ilə müştərilərin hörmətini qazanmışdır. Azərbaycanda dəyərli layihələrdə mühüm yer almışdır. Şirkət bu layihələri dəqiqliklə və lazımi vaxtda yerinə

yetirdiyini sübut etmişdir. Şirkətin fəaliyyəti elektrik və elektrik sistemləri sənayesi və ticarətidir. Şirkət Bakı Hava limanında Daxili Xətt Terminalında (2002-ci il) , Naxçıvan Beynəlxalq Hava Terminalında , Schlumberger Base Project, AFFA-nın yeni inzibati binasında, Turanbank ASC Qutqasenli kucesinde yeni İnzibati bina, butun elektrik və elektronik işləri, mal-material təmini və quraşdırılması işlərini standartlara uyğun olaraq həyata keçirilmişdir.
Hal-hazırda isə Podrat müqaviləsinə əsasən Neftçilər pr. 63-də İSR Residence, DİA Holding, Seren Inşaat – AR Prezidenti yanında Xüsusi Tibb Xidmətinin Müalicəvi Diaqnostika Mərkəzi, Şüvəlan, Bilgəh, Novxanı qəsəbələrində şəxsi villa layihələri və elektrik sistemlərinin təmini, quraşdırma işlərini beynəlxalq standartlara uyğun olaraq həyata keçirir. Adı çəkilən layihələrin və elektrik sistemlərinin təmini quraşdırma işlərini beynəlxalq standartlara uyğun olaraq həyata keçirir. Adı çəkilən layihələr beynəlxalq standartlarına uyğun, müasir və eyni zamanda mürəkkəb komplekslərdən ibarət olub Avropa və Türkiyədə qabaqcıl texnologiyası ilə istehsal edilmiş elektrik sistemlərinə aid materiallardan istifadə olunur.
**www.arjenengineering.com**

**AtaBank ASC**
İltifat Ağayev – İdarə Heyətinin Sədri
Tel: (012) 4978700
Faks: (012) 4987447
Ünvan: Ş.Bədəlbəyli küç.102
Artıq 15 ildir ki, AtaBank Azərbaycan bank bazarının formalaşmasında və inkişafında öz töhfəsini verməkdədir. Bank, yarandığı 1993-cü ilin noyabr ayından indiyədək zəngin inkişaf yolu keçərək, müştərilərinə daim yüksək səviyyəli xidmət göstərməyi və bank sahəsində yeni texnologiyaların tətbiqini qarşısına məqsəd kimi qoymuşdur. “Atabank” ASC bank bazarında güclü rəqabət şəraitində uğurla fəaliyyət göstərərək öz imicini formalaşdırmış və bu gün müştərilərə 18 xidmət bölməsi ilə geniş çeşiddə bank xidmətləri göstərməkdədir.
**www.atabank.com, www.atacard.az**

**AtaHoldinq ASC**
Ahmet Erentok – Müşahidə Şurasının Sədri
Tel: (012) 598 99 00
Faks: (012) 5989944
Ünvan: Zərifə Əliyeva küç. 55, Yeni Həyat kompleksi
2003-cü ildən etibarən fəaliyyətə başlamış "AtaHoldinq" ASC iqtisadiyyatın müxtəlif sahələrində investisiya qoyuluşunu, maliyyə vəsaitlərinin, habelə intellektual sərvətlərin idarə olunmasını və korporativ idarəetməni həyata keçirir.Əsas hissəsini xarici kapital təşkil edən bu vəsaitlər, əsasən maliyyə, sənaye, telekommunikasiya və İT, xidmət, inşaat və turizm sahələrinə yönəldilmişdir. "AtaHoldinq" ASC şirkətlər qrupuna daxil olan bütün təsərrüfat subyektlərində fəaliyyət yüksək professionallıq, yeni texnologiyaların tətbiqi və korporativ idarəetmə prinsipləri üzərində qurulmuşdur.2006-cı ildə "AtaHoldinq" ASC-nin menecment sistemi beynəlxalq "Bureau Veritas" şirkəti tərəfindən İSO 9001 standartlarına uyğun sertifikatlaşdırılmışdır. Holdinq Azərbaycanın həm fiziki, həm də intellektual resurslarından səmərəli istifadə etmək, yeni iş yerlərini yaratmaq üçün sərmayə qoymaq, səhmdarlar, işçilər və müştərilərinin məmnuniyyətini ən üst səviyyədə təmin etmək və nəticədə Azərbaycanın rifahı və iqtisadi inkişafına dəstək olmağı qarşısına məqsəd qoymuşdur."AtaHoldinq" ASC sosial yönümlü proqramlarda, xeyriyyə tədbirlərində yaxından iştirak edir, ölkə mədəniyyəti və incəsənətinin inkişafı, təhsilin səviyyəsinin daha da artması məqsədilə həyata keçirilən layihələri dəstəkləyir.
**www.ataholding.az**

**AtaLizinq ASC**
Yusif Müslimov – İdarə Heyətinin Sədri
Tel: (012) 5967588/25
Faks: (012) 596 76 11
E-mail: atalizinq@atalizinq.com
Ünvan: Bakı, AZ1014,Rəsul Rza küç.111
“AtaHoldinq” şirkətlər qrupuna aid olan “AtaLizinq” ASC 05 iyul 2004-cü il tarixdə “AtaHoldinq” ASC (64%) və “AtaBank” (36%) ASC tərəfindən təsis edilmişdir. “AtaLizinq” ASC-nin yaradılmasında əsas məqsəd respublikamızın sürətlə inkişaf edən iqtisadiyyatında sahibkarlara münasib şərtlərlə avadanlıq və əsas vəsaitlərin təmin edilməsinə köməklik göstərməkdən ibarətdir.
Lizinqin bütün növlərini həyata keçirməyi qarşısına məqsəd qoymuş “AtaLizinq” ASC hələlik qanunvericiliyin əl verdiyi ölçüdə maliyyə lizinqi xidməti göstərir. Şirkət inşaat, sənaye və istehsal, nəqliyyat və rabitə, səhiyyə, kənd təsərrüfatı və emal sektorları başda olmaqla bütün sahələrdə fəaliyyət göstərən yerli və xarici müəssisələrə keyfiyyətli lizinq xidməti göstərir.
2007-ci ildə özünün keyfiyyəti idarəetmə sistemini quran “AtaLizinq” ASC, Azərbaycan lizinq şirkətləri arasında ilk dəfə, 25 may 2007-ci il tarixdə ISO 9001:2000 Standartına uyğunluq sertifikatı əldə etmişdir
“AtaLizinq” ASC respublikanın bütün regionlarında çeşidli lizinq məhsulları ilə şəffaf və fərqli lizinq xidməti göstərərək aparıcı bir şirkət olmaq niyyətindədir.
**www.atalizinq.com**

**AtaSığorta ASC**
Tamerlan Hacıyev – İdarə Heyətinin sədri
Tel: (012) 598 24 32/33
Faks: (012) 4498141
E-mail: office@atasigorta.az
Ünvan: Zərifə Əliyeva küç. 55, Yeni Həyat kompleksi
Şirkət 2004-cü il iyul ayının 21-də rəsmi dövlət qeydiyyatından keçmiş və həmin ilin sentyabr ayının 3-dən etibarən isə tam lisenziyalı sığorta fəaliyyətini həyata keçirir. Təsisçisi və səhmdarı AtaHoldinq ASC olan şirkətin ödənilmiş nizamnamə kapitalı 2 mln. AZN təşkil edir. Azərbaycan Respublikası Maliyyə Nazirliyi 10 noyabr 2009-cu il tarixində “AtaSığorta” ASC-yə sığorta fəaliyyətinə müddətsiz lisenziya vermişdir.
Şirkət fəaliyyətinin əsas prinsipi kimi fiziki və hüquqi şəxslər üçün effektiv sığorta layihələri hazırlayır və inkişaf etdirir. AtaSığorta müştərilərinin bütün mümkün və sığortalana biləcək risklərinə maksimum təminat verir.
AtaSığorta şirkəti 27 növ sığorta xidmətləri, onlardan 22 könüllü və 5 icbari növlər üzrə sığorta xidmətləri təqdim edir. Şirkətin təqdim etdiyi əsas sığorta növləri arasında əmlak sığortası, nəqliyyat vasitələrinin sığortası, nəqliyyat vasitələri sahiblərinin mülki məsuliyyətinin icbari və könüllü sığortası, sürücü və sərnişinlərin bədbəxt hadisələrdən sığortası, üçüncü şəxslər qarşısında mülki məsuliyyətin sığortası, yüklərin sığortası, inşaat sığortası, işəgötürənin məsuliyyətinin sığortası, tibbi sığorta, fərdi qəza sığortası, bank və bank fəaliyyətinin sığortası və s. vardir.
Şirkət partnyorları və müştəriləri qarşısında götürdüyü öhdəliklərin yerinə yetirilməsi sahib olduğu sığorta xidmətləri portfelindən, əhəmiyyətli həcmdə sığorta rezervlərindən, praktiki iş təcrübəsi və peşəkar personaldan asılıdır. Bütün bu standartlara cavab verə bilmək üçün AtaSığorta beynəlxalq sığorta bazarının liderləri olan GenRe, Lloyds of London, Hannover Re, Swiss Re, Chauser, AIG, Korean Re, Trans Re, Rosno, Russian Re, Ingosstrakh, AON, Willis və digər şirkətlərlə əməkdaşlıq edir.

Heydər Əliyev fondu, Azərbaycan Respublikasının Milli Bankı, SGS, Azercell BM, AtaBank, Azəriqazbank, Nikoil, Azərdəmiryolbank, Delta Telecom və digər şirkətlər öz bizneslərinin qorunmasını AtaSığorta şirkətinə etibar ediblər.
Şirkət 2005-ci ildə "Moody İnternational" şirkəti tərəfindən İSO 9001:2000 beynəlxalq keyfiyyət sertifikatı almışdır. Hazırda Keyfiyyətin İdarəedilməsi üzrə İSO 9001-2008 beynəlxalq Sertifikatının alınması məqsədilə Şirkətdə zəruri işlər görülür.
2007-ci ilin yekunlarına görə "AtaSığorta" ASC "İlin Sığorta Şirkəti" nominasiyası üzrə "Uğur" Milli Mükafatına layiq görülmüşdür.
**www.atasigorta.az**

**AtaTexnologiya MMC**
Mais Yusifov – Direktor
Tel: (012) 4986103/28
Faks: (012) 5989944
E-mai: info@atatexnologiya.az
Ünvan: Zərifə Əliyeva küç. 55, Yeni Həyat Plaza
"AtaTexnologiya" MMC "AtaHolding" ASC-nin IT şirkəti olaraq 2005-ci ildə fəaliyyətə başlamışdir. "AtaTexnologiya" MMC sistem inteqrasiya şirkəti olaraq Azərbaycanda rabitə və informasiya texnoloqiyaları sahəsində fəaliyyət göstərir.
**www.atatexnologiya.az**

**ATTAS / Anglo-American şirkətlər qruplarının Alyansı**
Fatimə Aslan– Prezident
Tel: (012) 4977272/4971381
Faks: (012) 4982055
E-mail: info@alliance3a.com
Ünvan: Neftçilər prospekti 127
Alyansın fəaliyyəti dörd istiqamət üzrə aparılır:
İşədüzəltmə / Kadr seçimi:
Şirkətin məlumat bazasına müxtəlif fəaliyyət sahələrində çalışan 5 minə yaxın mütəxəssis daxildir və şirkət işədüzəltmə sahəsi üzrə 10 ildən yuxarı təcrübəyə malikdir.
Tərcümələr:
Şirkətdə ingilis, alman və digər dillərdən rəsmi yazılı, şifahi və sinxron tərcümə etməyi bacaran çoxlu sayda ştatlı və ştatdankənar ixtisaslı tərcüməçilər çalışır. Şirkət eyni zamanda kitabların tərcüməsi və redaktəsi, rəsmi sənədlərin tərcüməsinin rəsmi qaydada təsdiqi, filmlərin dublyaj olunması, müxtəlif mətnlərin yığılması, redaktəsi və tərtibatı üzrə xidmətlər də göstərir.
Kurslar:
Kompüter kursları (MS Windows & Office, Adobe Photoshop, CorelDRAW, AutoCAD, ArchiCAD, 3dsMax, Programming, Web design)
Mühasibat kursları (Ümumi mühasibat, 1C, CAP/CIPA)
Məktəbə hazırlıq
Ali məktəbə hazırlıq - bütün qruplar üzrə
Dil kursları – İngilis dili (General English, English for Examination – IELTS, TOEFL, Academic English, Business English, One-to-One Tuition), Rus, Azərbaycan, Alman, Fransız, İspan, Çin və s. dilləri.
HR kursları
Rəssamlıq
Dizayner kursları
Ofis işi üzrə hazırlıq

<u>Konsaltinq:</u>
Biznes planlarının işlənib hazırlanması, Marketinq tədqiqatlarının aparılması, Şirkətlərin qeydiyyatı (qeydiyyat sənədlərinin hazırlanması və s.), Şirkətlərin Azərbaycan qanunvericiliyi ilə tanış edilməsi, Hökumət strukturları ilə əlaqələrə kömək göstərilməsi, Agent xidmətləri, Şirkətlərin bazara daxil edilməsi, Ticarətdə vasitəçilik.
**www.alliance3a.com**

**AXA MBASK**
Ölken Yavuz - İdarə Heyətinin sədri
Rəşad Abbasov - İdarə Heyətinin sədrinin birinci müavini
Tel: (012) 498 91 90
Faks: (012) 498 10 62
Ünvan: H. Aslanov küç 80/9
MBASK Sığorta Şirkəti 1992-ci ildən öz fəaliyyətini həyata keçirir və müstəqil Azərbaycanın ilk özəl sığorta şirkətlərindən biridir. 1992-ci ildən 1996-cı ilədək olan dövrdə Azərbaycanın sığorta bazarının təşəkkülü baş verirdi. Bu müddət ərzində bazarın məhdud imkanlarına baxmayaraq MBASK peşəkar kollektiv formalaşdırmağa nail oldu və bu gün 29 sığorta növünü həyata keçirmək üçün lisenziyaya sahibdir.
2005-ci ildə Azərbaycan sığorta bazarının tarixində ilk dəfə Avropa Yenidənqurma və İnkişaf Bankı MBASK Sığorta Şirkətinin səhmlərinin 30 %-ni alaraq yerli sığorta şirkətinin səhmdarı oldu.
2006-2007-ci illərdə müstəqil bazar təhqiqatları MBASK şirkətini əhali arasında ən populyar və etibarlı sığorta şirkəti kimi tanımışdır.
2004-cü ildə MBASK Sığorta Şirkəti müvəffəqiyyətlə keyfiyyətin idarə olunması sisteminin sertifikatlaşdırılmasını keçmişdir. Şirkətin auditorları qismində Moody İnternational şirkətinin mütəxəssisləri iştirak etmişdirlər. Yoxlamanın nəticələrinə görə MBASK Sığorta Şirkətinə müvafiq sertifikat təqdim olunmuşdur. 3 il ərzində şirkət bütün zəruri keyfiyyət standartlarına riayət etmişdir ki, bu da həmin sertifikatın ilbə-il təsdiq olunmasında öz əksini tapmışdır.
2007-ci ilin dekabrında Moody İnternational şirkətinin mütəxəssisləri MBASK Sığorta Şirkətinin keyfiyyət menecmenti sisteminin növbəti auditor yoxlamasını aparmış və onun keyfiyyət menecmenti üzrə İSO 9001:2000 beynəlxalq standartının tələblərinə uyğun olduğunu təsdiq etmişlər.
2007-ci ilin nəticələrinə görə MBASK sığorta şirkəti toplanmış tədiyyələrin həcmi üzrə Azərbaycanın özəl şirkətləri arasında birinci yeri tutmuşdur.
14 oktyabr 2010 il tarixdə dünyanın ən iri sığorta şirkətlərindən biri olan "AXA Group" özünün törəmə cəmiyyəti olan "AXA Seguros Generales, S.A., De Seguros Y Reaseguros" (İspaniya) şirkəti vasitəsilə "MBASK" Sığorta Şirkətinin səhmlərinin əhəmiyyətli nəzarət zərfini (51 %) əldə etmişdir.
AXA Group dünyada ən iri sığorta şirkətlərindən biridir və Fortune Global 500-ün 2010-cu il üzrə siyahısında gəlirlərinə görə dünyanın 9-cu ən iri şirkəti kimi göstərilmişdir. AXA 57 ölkədə, əsasən Qərbi Avropada, Şimali Amerikada, Asiya-Sakit okean regionunda və Yaxın Şərqdə fəaliyyət göstərir. Qrupun 216 000-dən artıq əməkdaşı və dünya üzrə 96 000 000 müştərisi vardır. Qrup beş əməliyyat biznes-seqmentindən ibarətdir: Həyatın və Əmanətlərin sığortası, Əmlakın sığortası və Bədbəxt Hadisələrdən sığorta, Beynəlxalq sığorta (təkrarsığorta daxil olmaqla), Aktivlərin idarə edilməsi, habelə digər maliyyə xidmətləri.
2010-cu ilin 7 dekabrında MBASKın lisenziyası şirkətin adının AXA MBASK`a dəyişdirilməsi ilə əlaqədar olaraq yenilənib.
**http://axambask.az/**

**Azər-Türk Bank ASC**
Mehmet Sami Acarozmen- İdarə Heyətinin Sədri
Tel: (012) 4644200
Faks: (012) 4644203
E-mail: atb@azerturkbank.biz
Ünvan: Xocalı prospekti 55
"Azər-Türk Bank" Açıq Səhmdar Cəmiyyəti, 25.05.1995-ci ildə T.C.Ziraat Bankası A.Ş. və "Aqrarkredit" Səhmdar Kredit Təşkilatı (keçmiş Azərbaycan Respublikası Səhmdar Kommersiya Aqrar-Sənaye Bankı) tərəfindən təsis edilmiş və Azərbaycan Respublikası Milli Bankının 29.06.1995-ci il tarixli, 234 nömrəli lisenziyası ilə 11.07.1995-ci il tarixdə fəaliyyətə başlamışdır. Hazırda, nizamnamə kapitalı **10.990.520,00 AZN** təşkil edən Bankın səhmdarları T.C.Ziraat Bankası A.Ş. (46,00 %), "Aqrarkredit" Səhmdar Kredit Təşkilatı (46,00 %), Ziraat Bank İnternational AG (4,00 %) və "Turanbank" ASC-dir (4,00 %). Azərbaycan Respublikasının Milli Bankı tərəfindən verilmiş bank lisenziyası, Banka milli və xarici valyutada (USD, EUR, TRY, RUB və s.) fiziki və hüquqi şəxslərdən depozitlər və ya digər qaytarılan vəsaitlər cəlb etmək, öz adından və öz hesabına kreditlər vermək, habelə müştərilərin tapşırığı ilə köçürmə və hesablaşma-kassa əməliyyatlarını məcmu halda həyata keçirmək hüququ verir. Lisenziya əsasında, Bank öz hesabına və ya müştərilərin hesabına qiymətli metalların və daş-qaşların satın alınması və satılması, qiymətli metalların əmanətə cəlb edilməsi və yerləşdirilməsi üzrə fəaliyyət növləri istisna olmaqla, "Banklar haqqında" Azərbaycan Respublikası Qanunu ilə nəzərdə tutulmuş digər fəaliyyət növlərini də həyata keçirə bilər. "Azər-Türk Bank" Açıq Səhmdar Cəmiyyətinin Türkiyə, Amerika Birləşmiş Ştatları, İngiltərə, Almaniya və Rusiya bankları ilə müxbir münasibətləri vardır. "Azər-Türk Bank" ASC Bakı Banklararası Valyuta Birjasının, Azərbaycan Banklar Assosiasıyasının, Bakı Fond Birjasının, "MilliKart" Prosessinq Mərkəzinin, SWIFT ödəniş sisteminin, habelə Western Union, XPress Money və Bistraya Poçta beynəlxalq təcili pul köçürmə sistemlərinin, eyni zamanda MasterCard İnternational beynəlxalq kart təşkilatının üzvüdür.
www.azerturkbank.biz

**Azercell Telecom MMC**
Ali Ağan – Prezident
Tel: (012) 4967007
Faks: (012) 4300571
Ünvan: Tbilisi pr. ev 61a
"Azercell Telekom" MMC 1996-cı ilin 19 yanvar tarixində təsis edilib. Şirkətin ilk təsisçiləri Türkiyənin "Türkcell İletişim Hizmetleri A.S" şirkəti və Azərbaycan Respublikasının Rabitə Nazirliyi olub.
"Azercell Telekom" MMC öz fəaliyyətinə 1996-cı ilin 15 dekabr tarixindən etibarən başlamış və abonentlərin istifadəsinə sonradan ödəmə sistemi (abunəlik) əsasında qurulmuş mobil rabitə xidməti təqdim etmişdir. 1998-ci ildən etibarən SimSim — öncədən ödəmə sistemi tətbiq edilmişdir. Azercell 2000-ci ildə özünün keyfiyyət idarəetmə sistemini qurub və 7 dekabr 2000-ci il tarixində bu sistemin Beynəlxalq ISO 9001 Standartına uyğunluğu barədə Sertifikat alıb. 2003-cü ildə şirkətimiz eyni Standartın 2000-ci il versiyasına əsasən öz keyfiyyət sistemini yeniləyib və 15 yanvar 2004-cü il tarixində ISO 9001:2000 Standartına uyğunluq Sertifikatı əldə edib.
Azercell Telekom 2006-cı ildə IIP (Investors In People) - İnsanlara Sərmayədar (İS) Standartı üzrə Sertifikat ilə təltif edilmişdir.
Azercell Telekom IIP Standartı çərçivəsində bütün 12 meyara cavab vermiş və dünyada 36,000-dən çox IIP Standartı ilə işləyən şirkətlərin siyahısına daxil edilmişdir.

Hazırda Azərbaycanın mobil rabitə bazarının 57,6% “Azercell”-ə məxsusdur və onun şəbəkəsi ölkənin 80% ərazisini (20% işğal olunmuş əraziləri çıxmaq şərti ilə) əhatə edir ki, bu da Azərbaycan əhalisinin 99.8%-nin “Azercell” xidmətlərindən istifadə edə bilməsi deməkdir. “Azercell” fəaliyyəti dövründə Azərbaycanda telekommunikasiyanın inkişafına 1 milyard ABŞ dollarına qədər investisiya yatırmışdır. “Azercell”in dövlət büdcəsinə ödədiyi vergilərin həcmi isə 780 milyon ABŞ dollarından çoxdur.
**www.azercell.com**

**Az-Türk Pen MMC**
Ali Gümüş– Baş Direktor
Tel: (012) 4480634
Faks: (012) 4480635
Ünvan: Nərimanov rayonu, küç.1222, mən.12 (Elektroterm zavodunun sahəsi)
Plaspen PVC pəncərə, qapı sistemləri üçün ən yüksək keyfiyyətli PVC istehsal edən, cənub-qərbi Türkiyənin Aralıq dənizi sahilindəki böyük və Antaliyada 236.000 m²'lik müasir sənaye bölgəsində yerləşən şirkətdir. İllik 120.000 tonluq istehsal həcminə malikdir. Plaspen şirkəti 1950-ci ildən etibarən Türkiyənin inşaat sektorundakı şirkətlərdən biridir. Şirkətinin işinin əsas hissəsi PVC ilə bağlıdır. Şirkətlər qrupuna bağlı olan digər şirkətlər PVC borular, sement və beton sektoru, inşaat sektoru, mədən sektoru və hətta hava nəqliyyatı ilə bağlı püxtələşmişlər. Şirkət 1950-ci ildən etibarən fəaliyyət sahəsini genişləndirir.
Pəncərə, qapı sistemləri üçün istehsal edilən PVC profilləri bütün dünyada “WINTECH” markası ilə tanınır. Mərkəzdən fəal şəkildə Ingiltərə, Almaniya, Italiya, Fransa, Çexiya, Rumıniya, Bolqarıstan, Serbiya, Rusiya, Ukrayna, Qazaxıstan, Azərbaycan, Özbəkistan, Monqolıstan, Xorvatiya, İraq, İran, ABŞ, Meksika, Avstralya və daha bir cox ölkəyə ixracat həyata keçirilir. Bundan başqa, WINTECH-in, Almaniya, Tunis, Rusiya, Ukrayna, Hindistan və Azərbaycanda istehsal edilir. Azərbaycanda hal-hazırda tanınmış marka olan “PLASPEN” adından istifadə edilir.
Plaspen bazara 1989-cu ildə girmişdir. Eyni sektorda Avropanın qabaqcıl firmaları ilə imzalanan müqavilələrlə birlikdə həmişə sektordakı ən yeni texnologiyalardan istifadə edən şirkət olmalıdır. Yüksək standartlarla istehsal edilən PVC Profilləri müxtəlif iqlim şərtlərinə uyğun olur. İstehsala ilk başladığı gündən bəri Plaspen sektorda keyfiyyət və möhkəmliyinə görə marka olmuşdur.
Şirkətin şüarı “öncə və bütün hallarda keyfiyyət” olmuşdur. Bütün bunlar və istehsalda yüksək standartlara uyğunluğu sayəsində Plaspen Türkiyədən dünyaya ixrac edilən ilk PVC profile olmuşdur.
Plaspen beynəlxalq keyfiyyət qurumlarından aldığı çox saylı sertifikatlarla keyfiyyətini sübut etmişdir. Bunlar RAL (Almaniya), ROSENHEIM (Almaniya), ISO9001, GOST (Rusiya), INCERC (Rumıniya), UKRSEPRO (Ukrayna) və daha bir çoxlarıdır. TUV CERT tərəfindən verilən ISO14001 adlı sertifikata layiq görülən sektorda ilk firma olmuşdur. Bundan başqa Turk Standartlari Enstitusu (TSE) və Plastik Profil Ureticileri Dernegi (PUKAD) tərəfindən Türk keyfiyyət standartları ilə keyfiyyətini sübut etmişdir.
Plaspen son üç ildir ki, Bakı/Azərbaycanda profil istehsal edir.

**«Bank of Azerbaijan»**
Nedim Kaşkal – İdarə heyətinin sədri
Tel: (012) 4997000
Faks: (012) 4402302
E-mail: office@bank.az
Ünvan: H. Sarabski küç., 657-ci məhəllə
«Bank of Azerbaijan»-ın əsası, Azərbaycanın Mərkəzi Bankı tərəfindən verilmiş 166 №-li lisenziya əsasında «Rabbatbank» KB qismində 1993-cü ilin dekabr ayının 1-də qoyulmuşdur.
1998-ci ildə Bankın səhmləri «Turkiye Dish Ticaret Anonim Shirketi» türk şirkəti və iki azərbaycanlı fiziki şəxs arasında paylanmışdır, və bundan sonra Bankın adı «Ish Bankasi Azerbaycan» Birgə Kommersiya Bankı adı ilə əvəz olunmuşdur.
2004-cü ildə Bank öz təşkilati-hüquqi strukturunu dəyişərək Açıq Səhmdar Cəmiyyətinə çevrilir.
2006-cı il bank üçün olduqca əlamətdar bir il oldu. 2006-cı ildə «Turkiye Dish Ticaret Anonim Shirketi» türk şirkəti Bankın səhmdarları sırasından çıxır, səhmlərin ona məxsus olan 1%-i isə «Nem Holdings Limited» ərəb şirkəti tərəfindən əldə edilmişdir. Bundan sonra səhmdarların ümumi iclasında Bankın adının ASC «Bank of Azerbaijan» adına dəyişdirilməsi haqda qərar qəbul edilmişdir.
2006-cı ildən etibarən bu günədək bank böyük nailiyyətlər əldə edib.
Hazırda «Bank of Azerbaijan» öz müştərilərinə, hesablaşma-kassa əməliyyatları, istehlakçı, kommersiya, ipoteka kreditlərinin verilməsi, əmanətlərin qəbul edilməsi, plastik kartların verilməsi, pul köçürmələri, bank seyflərinin icarəsi və s. daxil olmaqla, geniş spektrli xidmətlər təklif edir.
Bank, biznesin kreditləşməsi və ipoteka kreditləşməsinə dair dövlət proqramlarında fəal iştirak edir, Azərbaycan Respublikasının İpoteka Fondunun və Sahibkarlığa Dəstək Milli Fondun agent-bankları sırasına daxildir, bu isə Banka əmanətçilərin depozitlərini sığortalamaq imkanını verir. Bu addım, şübhəsiz ki, Bank və əhalini daha da bir-birinə yaxınlaşdırır.
«Bank of Azerbaijan» korporativ idarəetmə sahəsində ISO-9001 beynəlxalq keyfiyyət sertifikatına layiq görülmüşdür ki, bu da «Bank of Azerbaijan»-da menecmentin səviyyəsinin yüksək olmasını bir də təsdiq edir.
Bankın prioritetlərindən biri filial şəbəkəsinin genişləndirilməsidir. Hazırda «Bank of Azerbaijan» öz filiallar şəbəkəsini optimallaşdırır. Optimallaşdırma, ilk növbədə, əhaliyə daha da keyfiyyətli xidmətlərin göstərilməsi istiqamətində aparılır. Hal-hazırda Bankın 12 filialı, 26 bankomatı və 147 POS-terminalı var.
«Bank of Azerbaijan» idman, tibb, təhsil, mədəniyyət, incəsənət, ekologiya kimi müxtəlif sahələri dəstəkləyərək, Korporativ Sosial Məsuliyyətə xüsusi önəm verir. Cəmiyyət qarşısında Sosial Məsuliyyəti dərk edərək, cəmiyyətin bütün təbəqələrinin problemləri «Bank of Azerbaijan»-ın diqqəti mərkəzindədir.
«Bank of Azerbaijan»-ın müştəri bazası getdikcə artır, bu isə Bankın etibarlığının göstəricisidir.

**Behrud**
Ilham Alməmmədov – Baş direktor
Tel: (012) 4472586, 4481851
Faks: (012) 4474487
E-mail: behrud.onduline@mail.ru
Ünvan: Cəfər Xəndan küç, 54
“Behrud” şirkəti 20.08.1996-cı ildə Alməmmədov İlham Hidayət oğlunun rəhbərliyi ilə yaradılıb. Yarandığı gündən bu günə kimi şirkət hər növ tikinti materiallarını idxalı, topdan və pərakəndə satışı ilə məşğuldur. Satışda olan mallar Sertifikatla təltif olunub. “Behrud” şirkəti 1999-2007-ci illərdə keçirilən “Baku Build Azerbaijan” inşaat sərgisində müvəffəqiyyətlə iştirak etmişdir.

2004-cü ildə hündür mərtəbəli binanın tikintisinə başlanmış və 2007-ci ildə bu tikinti möhtəşəm bina şəklində istifadəyə verilmişdir. “Behrud” şirkətinin Azərbaycanın 30-dan çox bölgəsində filialları fəaliyyət göstərir. Bundan başqa, şirkət olaraq Azərbaycandan kənarda, bir çox ölkələrdə tanınır.
Şirkət 2008-ci ildə Onduline Avrasya A.Ş. şirkətinin satış üzrə lideri olub və mükafata layiq görülüb. Daha sonra Onduline Avrasya A.Ş. şirkətinin Orlandiyada keçirilən “BAYİ” toplantısında “Behrud” şirkətinin şərəfinə xüsusi ziyafət verilmişdir. Hal-hazırda Onduline Avrasya A.Ş., Knauf, Baytaş, Polipier, Omax, Scala, Teracco, Patta kimi şirkətlərin Azərbaycandakı rəsmi distributorudur.
“Behrud” şirkətində hal-hazırda İlham Alməmmədovun rəhbərliyi ilə 30-dan çox işçi çalışır. “Behrud” şirkəti Azərbaycanın quruculuq fəaliyyətlərində hər zaman yaxından iştirak edir.

**Biləv İnşaat**
**Əmirov Fariz –** direktor
Tel: (012) 436 11 27
Faks: (012) 436 11 28
E-mail: fariz_emirov@mail.ru
Ünvan: Binəqədi rayonu, Cəfər Xəndan küçəsi 34, məhəllə 3066
"Biləv" İnşaat 2003-cü il tarixdən Bakı şəhərində fəaliyyət göstərir. Müəssisə Rusiya, Türkiyə, Almaniya, Çex Respublikası, Çin, BƏƏ-nin öndəgedən inşaat şirkətləri ilə iş birliyi qurmuş və bir çox növdə inşaat materiallarının idxalı, topdan və pərakəndə satışı ilə məşğuldur. Satışda olan malların bir çoxu Sertifikatlarla təltif olunmuşdur.
"Biləv" İnşaat şirkətinin Azərbaycanın bir çox regionlarında filialları fəaliyyət göstərir.
Şirkətin fəaliyyətinin əsas istiqamətləri ölkə ərazisinə dam örtüklərinin və su-izolyasiya materiallarının idxalı və satışının təşkili, Knauf-lövhələrin vurulmasında böyük rolu olan profillərin idxalı, Knauf-lövhələrin idxalı və topdan satışı, Alman, Çin, Hollandiya, BƏƏ, Çex respublikası istehsalı olan laminat-parketin idxalı və topdan satışıdır.
2006 və 2007-ci illərdə "Onduline Avrasya" A.Ş. şirkətinin Azərbaycan regionu üzrə satış lideri olmuşdur və xüsusi diploma layiq görülmüşdür.
Bütün bunlardan başqa "Biləv İnşaat" Türkiyə Səfirliyinin binası, Səməd Vurğun adına Rus Milli Dram Teatrı, Bakı şəhəri Yasamal rayonunun ərazisində yerləşən Ticarət Mərkəzinin və sair proyektlərin tikilməsində və yenidənqurulmasında böyük köməklik göstərmişdir.

**“Biznes Lou”**
Rzayev İmran – Direktor
Tel: (012) 4908237
Faks: (012) 4908239
E-mail: I.Rzayev@Businesslaw-27.az
Ünvan: Xırdalan şəhəri, 27-ci məhəllə, bina 14, mən 58

“Biznes Lou” şirkəti yarandığı andan öz biznesini yalnız qısa və uzunmüddətli layihələrin məqbul balansını nəzərə almaqla təşkil etmişdir.

“Biznes Lou” şirkəti aşağıdakı hüquqi və maliyyə xidmətlərini təqdim edir.

- Azərbaycan Respublikasının hüdudlarında istənilən müəssisələrin, şirkətlərin və xarici hüquqi və fiziki şəxslərin nümayəndəliklərinin, habelə onlara edilmiş dəyişikliklərin dövlət qeydiyyatının aparılması;

- Offşor, vergisiz şirkətlərin və xüsusi vergi rejimli şirkətlərin yaradılması, bank hesablarının açılması və onların dövlətdən müstəqil şəkildə aparılması;
- Holdinqin yaradılması üzrə bütün növ xidmətlərin göstərilməsi;
- Xarici şirkətlər (xarici şirkətlərin nümayəndəlikləri, xarici investisiyalı şirkətlər) tərəfindən həyata keçirilən biznesin hüquqi təcrübi-konsultasiya müşayiəti.
- Azərbaycan şirkətləri tərəfindən xaricdə həyata keçirilən biznesin hüquqi müşayiəti.
- Fiziki və hüquqi şəxslər tərəfindən sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi nəticəsində yaranan məsələlərin həlli üzrə hüquqi tövsiyyələrin verilməsi və onların reallaşdırılması;
- Mülkiyyət formasından asılı olmayaraq müxtəlif hüquqi şəxslərin, müəssisələrin və təşkilatların təşkil və ləğv edilməsi;
- Fiziki və hüquqi şəxslərin maraqlarını, hüquqlarını və mənafelərini qoruyan bütün növ mülki-hüquqi sənəd və aktların işlərin hazırlanması, onların dövlət notariat kontorunda təsdiq edilməsi və bağlanması zamanı iştirakın təmin edilməsi;
- Korporativ formasından, istehsalat həcmindən və perspektivlərindən asılı olmayaraq istənilən təşkilatın təkmilləşdirilməsi, yeni layihələrlə bağlı hüquqi rəylərin verilməsi, zərurət yarandıqda onların icrası;
- Potensial kontragentlərin təkliflərinin, işgüzar yazışmalarının, müqavilə layihələrinin təhlili əsasında onların dürüstlüyü və məsuliyyətinin qiymətləndirilməsi. Kontragentin seçimi və əqdlərin xarakteri üzrə tövsiyələrin verilməsi.
- Binalarla, qurğularla, torpaq sahələri, sənaye müəssisələri, gəmilər, avadanlıq və digər əmlakla bağlı qiymətləndirmə aktlarının tərtib edilməsi;
- Azərbaycan Respublikasının ərazisində biznes fəaliyyətinin həyata keçirilməsi üçün xarici vətəndaşlara lazım olan vizaların, iş və qeydiyyat sənədlərinin alınması
- Mühasibat uçotunun, vergi qanunvericiliyinin və vergilərin optimallaşdırılması ilə bağlı tövsiyələr;
- Müştərilərin mühasibat uçotu sənədlərinin və ilkin sənədlərinin hazırlanması, mühasibat uçotunun aparılması;
- Vergilərin ödənilməsi planının tərtibi, bəyannamələrin hazırlanması və digər ödənişlərin düzgün uçotu, vergi uçotunun rəsmiləşdirilməsi və vergilərin vaxtında ödənilməsinə dair tövsiyələrin verilməsi;

- Vergi, mülki, inzibati qanunvericiliyin tətbiqi zamanı yarana biləcək mübahisəli məsələlərin həlli üçün müvafiq sənədlərin hazırlanması.

- Real bazarın təhlili əsasında yeni biznes-planların hazırlanması üzrə xidmətlər;

- Müxtəlif mürəkkəblik səviyyəli layihələrin və kontraktların, habelə biznes istiqamətlərinin hazırlanması və texniki təhlili, onların həyata keçirilməsi;

**Cenay Inşaat Sanayi ve Ticaret Limited**
Mehmet Nedim Eren – Təmsilçi
Tel: (012) 4938040
Faks: (012) 4933230
E-mail: office_azerbaijan@cenay.com
Ünvan: Nərimanov rayonu, Hacı Murad küçəsi,21 "A"
1998-ci ildən etibarən, başda İstanbul olmaq üzrə bütün Türkiyədə, Bolqarıstanda və Azərbaycanda GSM təməl stansiya layihələndirmə, montaj və dövriyə həyata keçirilməkdədir. İş 1999-cu ildə Netaş şirkəti ilə bərabər, üç ədəd 25 000 abunəlik Telefon Stansiya Binaları inşaatı və stansiya montaj işləri, gəlir ortaqlığı yolu ilə və açar təslimi olaraq alındı və 2002-ci ildə T.Telekoma təslim edildi. Şirkət kabel televiziya, həm də sürətli internetin təmin edilməsi sahəsində hazırlıq işləri ilə məşğuldur. Eyni zamanda Cenay Dizayn Qrupu yaradılmışdır ki, Sumqayıt şəhərində plastik boru istehsalı ilə məşğuldur. Cenay İnşaat Sanayi ve Ticaret Limited şirkəti tərəfindən yaradılan Mete İnşaat isə tikinti sektorunda özünəməxsus yer tutmuşdur. Şirkət 2007-ci ildə Türkiyə Respublikasının Azərbaycan Səfirliyinin inzibat binasını yüksək səviyyədə tikib təhvil vermişdir.
**www.cenay.com**

**“CLC” MMC**
Pərviz Məmmədov – İdarə Heyətinin Sədri
Tel: (012) 5116609
E-mail: office@clc.az
Ünvan: R.Behbudov 59/1
“CLC” MMC 31 iyul 2008-ci ildə dövlət qeydiyyatına alınmışdır. Şirkət Azərbaycanda kommersiya təşkilatlarına professional hüquq-konsaltinq xidmətləri təqdim edir. Hazırda şirkət öz müştərilərinə korporativ idarəetmənin hüquqi təşkili və tənzimlənməsi, müqavilə münasibətlərinin hüquqi tənzimi, əmək münasibətlərinin hüquqi tənzimi, banklarla münasibətlərin və digər maliyyə əməliyyatları ilə bağlı münasibətlərin hüquqi tənzimi, sığorta münasibətlərinin hüquqi tənzimi, vergi planlaması, əqli mülkiyyət və onun qorunması (əmtə nişanları (brand), müəllif hüquqları, patent və s.) konfliktlərin məhkəmədənkənar və məhkəmə qaydasında həlli istiqamətlərində peşəkar hüquq konsaltinq xidmətləri təqdim edir.

**Days Hotel Baku**
Tamer Bektaş- baş direktor
Tel: (012) 496 73 00
Faks: (012) 496 75 00
E-mail: info@dayshotelbaku.az
Ünvan: Babək Prospekti, 21/99
Daim fəaliyyət dairəsini genişləndirən **«Cahan Holding»** mehmanxana biznesi sahəsində də ilk uğurlu addımlarını atır. Belə ki, ABŞ-ın dünya şöhrətli **«Wyndham»** otellər şəbəkəsi kimi nəhəng şirkəti məhz **«Cahan Holding»**ə etimad göstərib.
Hazırda Holdinqə məxsus **«Days Hotel Baku»** adlı, 102 otaq, restoran, bar və konfrans zallarından ibarət möhtəşəm mehmanxana Bakı şəhərində daim müştərilərə yüksək xidmət göstərir.
Qeyd edək ki, **«Days Hotel Baku»** İsveçrənin mehmanxana biznesinin idarə olunması və onun inkişaf etdirilməsi sahəsində ixtisaslaşmış «**Sophos»** şirkəti tərəfindən idarə olunur.

**Dəmirbank**
**Mərdan Şıxəliyev-** İdarə Heyəti Sədrinin birinci müavini
Tel: (012) 444 72 28
Faks: (012) 444 72 14
E-mail: info@demirbank.az
Ünvan: Xətayi pr. 22

DəmirBank 21 illik tarixə və zəngin təcrübəyə malik olmaqla Azərbaycanın aparıcı banklarından biridir. Bank ölkənin ilk bankları sırasında 6 oktyabr 1989-cu ildə yaranmış, Azərdəmiryolbank adı ilə fəaliyyət göstərmiş və bir çox nailiyyətlər qazanmışdır. Bank 16 oktyabr 2009-cu il tarixindən etibarən fəaliyyətini DəmirBank adı ilə həyata keçirir.
Bankın səhmdarları sırasına 2005-ci ildən "25% + 1 səhm" paketi ilə Avropa Yenidənqurma və İnkişaf Bankı (EBRD) və 2007-ci ildən 10% səhm paketi ilə Hollandiya İnkişaf Maliyyə Şirkəti (FMO) daxildir. Bu beynəlxalq maliyyə təşkilatları "35% + 1 səhm" paketi ilə Bankın Müşahidə Şurasında təmsil olunur və strateji qərarların qəbulunda iştirak edirlər. Beynəlxalq səhmdarların mövcudluğu Banka etibarı əks etdirmiş və onun inkişafı üçün yeni imkanlar yaratmışdır.
2004-cü ildə Fitch beynəlxalq reytinq agentliyi ilə əməkdaşlığa başlamaqla, DəmirBank ölkədə beynəlxalq reytinq alan ilk özəl bank olmuşdur. DəmirBank hazırda Fitch agentliyinin "stabil" proqnozlu "B-" və Planet Rating agentliyinin "pozitiv" proqnozlu "B+" reytinqlərinə malikdir. Bu reytinqlər Azərbaycan bank sektorunda ən yüksək reytinqlər sırasındadır, reytinq proqnozları isə Bankın inkişafı ilə bağlı müsbət gözləntilərdən xəbər verir.
DəmirBank (həmin vaxt Azərdəmiryolbank) 1996-cı ildən beynəlxalq mühasibat standartlarına uyğun audit keçən ölkənin ilk özəl bankıdır. Bankın fəaliyyətinin auditi PriceWaterhouseCoopers beynəlxalq audit şirkəti tərəfindən həyata keçirilir.

**“DİBS” MMC**
İlkin İmaməliyev - Direktor
Tel: (012) 464 42 94
Faks: (012) 464 42 93
E-mail: ilkin@dibs.az, info@dibs.az
Ünvan: AZ 1025, Xocalı 55, Ağa center 4-cü mərtəbə,

DİBS MMC öz fəaliyyətinə 2010-cu ildə başlamışdır. Şirkət hazırda dünyada “pre-engineered steel buildings” PEB, yəni əvvəlcədən hazırlanmış metal binaların istehsalı sahəsində dünyada öndə olan Kirby Building Systems şirkətinin Azərbaycan nümayəndəsidir.
Kirby tərəfindən Birləşmiş Ərəb Əmirlikləri və Küveytdə yerləşən zavodlarda hazırlanan metal-konstruksiyadan ibarət olan binalar beynəlxəlq bina-tikinti standardlarına uyğundur.
Kirby əsasən sənaye, kommersiya, əyləncə məqsədli və anbar tipli binaların istehsalı və yerində montajı üzrə ixtisaslaşmışdır.

**DİTİS Reklam MMC**
Ömer G.Çetinbakış
Tel: (012) 4929132
Faks: (012) 4933230
E-mail: info@dits.az
Ünvan: Xətai rayonu, 10-cu zavod küç. 2a/21

DİTİS Reklam MMC şirkəti Azərbaycanın reklam bazarında müasir standartlara uyğun müxtəlif çeşidli reklam, poliqrafiya və promosyon xidmətləri təklif edir. Bunların arasında reklam şitləri və stendlərini, bilbordlar və transporantları, plakatlar, bukletlər, jurnallar, kağız çantalar, təqvimlər və s.-ni göstərmək olar. Şirkətin təklif etdiyi promosyon materiallarının çeşidi isə daha genişdir və unikal dizaynlarına görə fərqlənirlər. Peşəkar xidməti əsas meyar kimi götürən şirkət özünün fəaliyyətində ən yeni texnologiyalardan və ideyalardan istifadə edir. İşinə müştərilərindən də tələbkarlıqla yanaşan şirkətin uğurunun əsas amili isə peşəkar mütəxəssisləridir.

**Elit Yatırım ve Ticaret**
Ramazan Mehmet Dörtok – Şirkət sahibi
Tel: (012) 4473625
Faks: (012) 4473625
Ünvan: Lökbatan qəs., Qurd qapısı 4
1998-ci ildən əlvan metal məhsullarının istehsalı ilə beynəlxalq ticarət sahəsində fəaliyyət göstərir. Məhsulları Yaponiya, Cənubi Koreya və BƏƏ kimi ölkələrə ixrac olunur.

**ELTİ Mühəndislik**
Qabil Murtuzov-direktor
Tel: (012) 440 02 06
Faks: (012) 440 92 06
Ünvan: X.Şuşinski küç. 53
**ELTİ Mühəndislik** şirkəti uzun müddətdir ki, istilik və su təchizatı sistemləri sahəsində avadanlıqların satışı, quraşdırılması, servisi və layihələndirilməsi ilə məşğuldur. Kompaniya öz daxilində aşağıdakı qrupları birləşdirir:
1. Menecer qrupu. (avadanlıqların satışı və təchizatı)
2. Mühəndis qrupu. (layihə hesabatları və avadanlıqların seçilməsi)
3. Quraşdırma qrupları. (sistemlərin və avadanlıqların quraşdırılması və sınağı)
4.Servis qrupları. (avadanlıqların dövrəyə alınması, sazlanması, ehtiyyat hissələrin təminatı, 7/24 saat servis xidməti)
Şirkət fəaliyyət müddəti ərzində bir çox tanınmış markaların təmsilçisi olmuşdur. Hal-hazırda kompaniya DEMİRDÖKÜM (Türkiyə), ERENSAN (Türkiyə) və WILO (Almaniya) şirkətlərinin Azərbaycanda rəsmi satış təmsilçisi və servis partnyorudur.

**European Tobacco Baku ASC**
Rüfət Quliyev – İdarə Heyətinin Sədri
Tel: (012) 4903022/23; 4904040
Faks: (012) 4904040; 4903017
E-mail: office@eurotobacco.com
Ünvan: Nizami rayonu, Keşlə qəsəbəsi, 1-ci Köndələn küç 21. İndeks: AZ 1031
European Tobacco Baku ASC tütün və tütün məmulatları (siqaret) istehsal edir. Şirkət 20-yə qədər adda siqaret markaları istehsal edir.

**Farmetik MMC**
Murat Nuri Ibrahimagaoglu – Baş direktor
Tel: (012) 447 38 60
Faks: (012) 447 38 63
E-mail: magaoglu@pharmethic.com
Ünvan: Badamdar qəsəbəsi, 1 massiv, ev 111

**Fatoğlu Azerbaycan Ltd. Şirkəti BM**
İhsan Fatoğlu – Baş Müdir
Tel: (012) 4184538/4184518
Faks: (012) 4187481
E-mail: istehsal@fatoglu.com.tr
Ünvan: Heydər Əliyev prospekti 106 b
Fatoğlu Qrupu üçün mühüm bazar olan və uzun illər ərzində məhsulların ixrac olunduğu Azərbaycanda mövcud tələbi qarşılamaq məqsədi ilə 1999-cu ildə 150 ton/gün fəaliyyət həcmi ilə istehsalata başlayan fabrik qısa müddət sonra fəaliyyət həcmini 300 ton/günə çatdıraraq istehsalata davam etmişdir. Şirkət, Gəncədəki fabriklərində un istehsalını həyata keçirir. Eyni zamanda şirkət beynəlxalq ticarət ilə məşğuldur.
**www.fatoglu.com.tr**

**"FLAY-INN TRAVEL"**
Akif Akbulut
Tel: (012) 498 89 15
Faks: (012) 493 02 63
Ünvan: Ə. Əlizadə 14
"FLAY-INN TRAVEL" MMC 2004-cü ildə fəaliyyətə başlamışdır. Şirkət hər il beynəlxalq turizm sərgilərində, Azərbaycanda və xaricdə keçirilən yarmarkalarda iştirak edir. Şirkətdə çalışan işçilər geniş iş təcrübəsinə malikdir.
"Flay-INN TRAVEL" şirkəti şirkət Beynəlxalq Hava Nəqliyyat Assosiasiyasının (IATA) və Beynəlxalq Turizm Assosiasiyasının (AZTA) üzvüdür.
Şirkət otel və aviabiletlərin sifarişinin müxtəlif sistemlərindən istifadə edir, onların çoxu, "Qabriel", "Amadeus" dur.

**Gantek Azərbaycan MMC**
Cəmil Məhərrəmov
Tel: (012) 418 86 60
Ünvan: Caspian Plaza, 1 korpus 14-cü mərtəbə
24 illik İT sahəsində təcrübəli biliyə malik olan Gantek şirkəti məlumat yığma, virtuallaşdırma, xarici qaynaq istifadəsi, sənaye avtomatlaşdırılma, dəniz elektronikası, dəstək xidmətləri təmin etməkdədir.

Gantek əsas idarəetmə prinsiplərini illər əvvəl təyin etmiş və İSO Xidmət Keyfiyyət sənədinə sahib bir texnologiya şirkətidir. Korporativ İdarəetmə sahəsində ilk addımları 2001-ci ildə atan firmanın idarə heyətində müstəqil üzvlər vardır.

**Heavy Industry & Construction Company**

Ergun Seçmeer - Ölkə müdürü
Tel: (012) 404 41 53
E-mail: baku@hiccompany.com, esecmer@hiccompany.com, ssoyyigit@hiccompany.com

Mərkəzi ofisi İstanbulda olan şirkətin əsas fəaliyyət sahələri ümumi inşaat işləri, tikintinin idarə edilməsi, təchizat, dağıdıcı olmayaq sınaqlar (NDT), texniki avadanlığın istehsalının təmin edilməsi, sənaye poladının istehsalı və montajı, sənaye boru, elektrik və mexaniki işlərin, boya və izolyasiya işlərinin həyata keçirilməsi ilə bağlıdır. Ağır sənaye sahəsində etibar edilən şirkət kimi dünya bazarlarında tanınmışdır.
Şirkət hazırda Azərbaycanda "AzMeCo" Metanol Zavodu layihəsi çərçivəsində boru, polad, avadanlıq və NDT işlərini həyata keçirməkdədir.
Təcrübəli idarəçilik və peşəkar heyətə malik olan şirkət ISO 9001:2008, ISO 14001 ve TS 18001 keyfiyyət standartları tələblərinə uyğun fəaliyyət göstərir. Şirkət haqqında daha ətraflı: **http://www.hiccompany.com/**

**İlk-Tam MMC -rehberi**

Tel: (012) 4908288-89
Faks: (012) 4901573
Ünvan: Bakı Nobel prospekti 4 A

İlk-Tam MMC şirkəti İstanbulda qurulmuş İlk İnşaat Taahhüt Ltd.Şti. firması ilə Tamin şirkətinin Azərbaycandakı filialı olan Tamaz MMC şirkətinin ortaqlığı nəticəsində yaradılmışdır. Şirkət tikinti işləri ilə yanaşı tikinti-quraşdırma və layihələrin idarə edilməsi fəaliyyəti ilə də məşğuldur. İlk-Tam MMC şirkətinin hazırdakı ən mühüm fəaliyyəti Port Baku Residencenin tikinti işləridir.
Şirkətin qurucu tərəflərindən biri olan İLK İnşaat Taahüt Sənaye və Ticarət MMC şirkəti inşaat sektorunun bir çox sahələrində Türkiyə, Türkmənistan, Rusiya və Qazaxıstanda olmaqla, ümumilikdə 46 layihəni tamamlayıb təhvil vermiş və 10 layihənin işlərini də davam etdirməkdədir. Şirkətin davam edən işlərində hazırda 3500 nəfər işləyir. Şirkətin digər qurucu tərəfi olan Tamin şirkəti isə Şüvəlan Ticarət Mərkəzinin, JW Marriot otelinin, Abşeron otelinin, İstanbul şəhərindəki Conrad – Hilton, Hyatt Regency, Çırağan Palace Hotel Kempinski, Swiss otellərinin, Göçekdəki Brandrup villalarının, Zekeriyyaköydəki akapark evlərinin, Bodrumdakı Hapimag Sea Garden otelinin, Yaşıl Vadi evlərinin, Gümüşlüdəki Old Housenin müxtəlif səpkili işlərini həyata keçirmişdir.

**Improtex MMM**

Həsən İsmayılov – Baş Menecer
Tel: (012) 4980227/28
Faks: (012) 4989225
E-mail: management@improtex.az
Ünvan: H.Aslanov küç.115

“İmprotex" Şirkətlər Qrupu 1991-ci ildə yaranıb. Bir neçə il ərzində “İmprotex” şirkəti öz fəaliyyətini müxtəlif istiqamətlərdə inkişaf etdirərək adi turizm şirkətindən çoxşaxəli şirkətlər qrupuna çevrilib. Şirkət sadə turların təşkilatçılığından baş ofisi Bakıda yerləşən, BƏƏ və Çində nümayəndəliyi olan çoxşaxəli bir korporasiyaya qədər inkişaf yolu keçib. **“**Improtex Group**”** hazırda Azərbaycanda ən geniş və müvəffəqiyyət qazanmış holdinqlərdən biridir.
**www.improtex.net**

**İnnovasiya İnstitutu**
Fərhad Mehtiyev - Direktor
Tel/faks: (012) 5300508
E-mail: info@open.edu.az
Ünvan: 3-cü mikrorayon dairəsi, Çudopeçkanın yanı
Innovasiya İnstitutu Azərbaycan vətəndaşlarına distansion, yəni uzaq məsafədən, texnologiya vasitəsilə xarici təhsil strukturlarında ali, orta-peşə və əlavə professional təhsil almaq imkanı verən ilk Azərbaycan strukturudur. Mərkəz bu layihələrin həyata keçirilməsi üçün ən müasir texniki əsaslara malikdir. Tələbə və ATO arasında informasiya mübadiləsi prosesi müasir texniki vasitələrdən istifadə edilməklə - internet şəbəkəsinə qoşulmuş kompüter, peyk televiziyası, multimedia təhsil proqramları, elektron kitabxanalar, məşhur alimlərin video mühazirələri, əyani slayd-mühazirələr və s. təşkil edilir.
**www.open.edu.az**

**İstanbul Çarşı Import Export Ltd**
Cemal Yangın – İdarə Heyətinin Sədri
Tel: (012) 4982086
Faks: (012) 4982073
Ünvan: Neftçilər pr.14
“Istanbul Çarşı Import & Export Ltd” şirkətinin təməli 1994-cü ildə Azərbaycanın paytaxtı Bakı şəhərində qoyulmuşdur. Şirkət tikinti avadanlıqları sahəsində tanınmış Dünya markalarının distributor olaraq, bu markaların Azərbaycan və Gürcüstanda nümayəndəsi və beynəlxalq ticarəti ilə məşğuldur. Şirkət alüminium fasad və pəncərə sistemləri, pvc qapı pəncərə sistemləri hazırlayır. Şirkət müştərilərinə satış sonrası texniki xidmət göstərməkdədir. Istanbul Çarşı Import & Export Ltd eyni zamanda, şirkət daxilindəki inşaat qrupu ilə tikinti işləri aparır. Türkiyədə və dünyanın digər ölkələrində texniki təhsil almış işçiləri ilə bazarda öz yerini tutmuş şirkət Azərbaycan bazarında daimi olduğunu bu günə qədər gördüyü işləri ilə sübut etmişdir. Şirkət iri layihələrdə tikinti işləri aparır. Proyekt və işçilərlə əlaqədar layihə hazırlayaraq interyerlə birlikdə tam təhvil verir.
Şirkətin Gürcüstanda “Geo construction Ltd”, Əlcəzairdə “Sarl Istanbul pvc&alımınyum ltd” və “Sarl blue lıne ltd” adlı yeni fialları açılmışdır.
**www.istanbulcarsi.com**

**İtaldizayn QTSC**
Elçin Zeynalov – Baş Direktor
Tel: (012) 4989660/61
Faks: (012) 4982167
E-mail: office@italdizain.az
Ünvan: Ü.Hacıbəyov küç.33/35

Eurodesign və Transeurocom telekommunikasiya şirkətlərdən əlavə, bu gün “İtaldizain Group” şəbəkəsinə aşağıda göstərilən salonlar daxildir:
İdeal mebel, tekstil və işıq salonu
Museum mebel butiki
Creative System santexnika və keramika salonu
The House of Villeroy&Boch santexnika və keramika salonu
The House of Villeroy&Boch (2) çini, büllur və mətbəx qab-qacağı butiki
Ambiance çini və büllur butiki
Lladro Haviland çini və dekor butiki
Bang&Olufsen audio-video sistemlər salonu
Yves Delorme Fransız yataq dəstləri butiki
Baccarat-Bernardaud çini və büllur butiki
Carpets xalça butiki
Royal Collection zərgərlik butiki
Chopard zərgərlik butiki
Roberto Coin-De Grisogono zərgərlik butiki
Swarovski (3) büllur bəzək əşyaları butiki
**www.italdizain.az**

**İzopoli MMC**
Doğan Kırmızı– Regional direktor
Tel: (012) 4644085
Faks: (012) 4644083
E-mail: dogan.kirmizi@izopoli.com, elvin.suleymanov@izopoli.com
Ünvan: Xocalı prosp. 55

İzopoli MMC şirkəti beynəlxalq inşaat sənayesinin bütün sferalarında sendviç panelsistemlərinin layihələndirilməsi və istehsalı sahələrində lider mövqe əldə etmişdir.
Şirkətin fəaliyyətinin vizit vərəqəsi IPN markalı odadavamlı izolyasiyalı sendviç panellərdir. Şirkət həm də mineral yun və polistirol izolyasiyalı panelləri və bu sahə üçün geniş aksesuar çeşidlərini təklif edir. Şirkətin dam və divar panelləri hər növ binada istifadə edilməyə uyğun olmaqla yanaşı ən keyfiyyətli materiallardan emal edilir. Beynəlxalq şirkət kimi Kingspan Izopolinin bütün Avropada, Uzaq Şərqdə, Şimali Amerika və Avstraliyada öz şöbələri və ticarət ofisləri vardır.
Kingspan Izopolinin məhsulları həm yeni inşaatlarda, həm də təmir olunacaq köhnə obyektlərdə tikinti xərclərini minimuma endirmək və ətraf mühitin mühafizəsini təmin etmək, inşaat işlərinin keyfiyyətini artırmaq məqsədilə hazırlanır.
Kingspan Izopoli kompleks həllər təklif edir. Təklif olunan məhsullar inşaat zamanı tez qurulması, möhkəmliyi və odadavamlılığı ilə fərqlənir.

**Karat Holding MMC**
Əsabil Qasımov – Direktor
Tel: (012) 4368666
Faks: (012) 4368660
E-mail: office@karatholding.az
Ünvan: Muxtarov küç.201
Şirkət un istehsalı ilə məşğul olur. Şirkət inşaat sahəsində də böyük uğurlar əldə etmişdir.

**Konsalting az MMC**
Vüqar İsmayılov – Baş Direktor
Tel: (012) 4493925/26
Faks: (012) 4498565
Ünvan: S.Rüstəm 9
Azərbaycan Respublikası iqtisadiyyatının bütün sahələrinə olan maraq xarici investisiyanın intensiv surətdə ölkəyə cəlb olunmasını, ölkənin sosial - iqtisadi bazasını, beynəlxalq iqtisadi əməkdaşlığı sürətlə inkişaf etdirir və respublikada sərbəst bazar iqtisadiyyatının inkişafına şərait yaradır. Bu da, investisiya fəaliyyətinin subyektləri arasında münasibətlərin düzgün tənzimlənməsi üçün peşəkar hüquqi, maliyyə və digər xidmətlərə olan tələbatı artırır.

**Libra Limited Liability**
Efruz Müdüroğlu – Baş Müdir
Tel: (012) 4982456
Faks: (012) 4982457
E-mail: office@thelandmark.az
Ünvan: Nizami küç.96, Landmark
Lybra LTD, Hazar Investments LTD (U.K.), Hazar (Azerbaijan) və Müdüroğlu LTD tərəfindən 27 Mart 1998-ci il tarixdə Ədliyyə Nazirliyinin 362 qeydiyyat nömrəsi ilə qurulmuşdur. Lybra LTD`nin fəaliyyəti əsasən daşınmaz əmlak və lizing sahələrini əhatə etməkdədir. 2002-ci ildə inşası başa çatan Landmark II İngiltərə Səfirliyi tərəfindən icarəyə götürülmüşdür.

**Mapet Mekanik MMC**
Reha Altay – Direktor
Tel: (012) 490 20 53
Faks: (012) 490 20 59
Ünvan: Dilarə Əliyeva 251/A Blok 2, mənzil 37
2009-cu ilin fevralında qurulmuş olan şirkət Azərbaycanda ticarət mərkəzi , iş yeri, ev, xəstəxana, hava limanı və fabriklərdəki istilik və soyutma sistemlərini, hava təmizləmə, santexnika avadanlıqlarını, avtomatik və yoxlama avadanlıqları kimi bütün mexaniki işlərin layihə, məsləhətçilik və öhdəçilk kimi xidmətlərini həyata keçirir.
Şirkətin qurucusu olan Reha Altay 2002-2009-cu illərdə Maped İnşaat ortaqlığı, 2009-cu ildən etibarən isə RA MEKANİK firması ilə Azərbaycanda çox sayda böyük və prestijli işləri həyata keçirmişdir.
**www.ramekanik.com**

**Mesut Ofis Mebeli MMC (ZİVELLA)**
Abdurrahman Uzun – Təsisçi
Tel: (012) 5635353
Faks: (012) 4362758
E-mail: zivella@zivella.net
Ünvan: Atatürk prospekti 34-D Gənclik
Firma “Mesut Ofis Mebeli” olaraq Türkiyədə uzun illər əldə etdiyi təcrübələrlə 2003-cü ildən etibarən Azərbaycanda Zivella loqosu ilə fəaliyyətə başlamışdır. Şirkət ofis mebeli, mətbəx mebeli, restoran, kafe, bar, stol-stulların satışı ilə məşğuldur. Zivella ötən müddət ərzində təklif etdiyi məhsulların keyfiyyətini artırdığı kimi kadrlarının da peşəkarlığını artıraraq, müştərilərinə problemsiz və yüksək səviyyəli xidmət təklif edir.

**Metafor MMC**
**Rzayev Nadir –**
Tel: (012) 5113560
Faks: (012) 5113560
Ünvan: X. Şuşinski, 655-ci məhəllə

**MEP CERT MMC**
Canan Ülkü – Baş Direktor
Tel: (012)4477302 /4182059
Faks: 564 66 89
Ünvan: Ə.Rəcəbli 30, mən. 2
"MEP CERT MMC" Azərbaycan Respublikası Qanunvericiliyinə görə qurulmuş, Azərbaycan Respublikası Qanunlarına əsasən fəaliyyət göstərən və bu sahədə tam uyğunluğu olan bir sertifikatlandırma təşkilatıdır. "MEP CERT MMC" firmasının əsas işi tədris vermək və sertifikatlandırmaqdır. Təklif etdiyi xidmətlərin yüksək keyfiyyətli idarəetmə sistemləri, standartlaşdırma, sənədləşdirmə, təlimdən ibarət olduğu şirkət özəl sektorda 10 illik təcrübəyə malik rəhbərlik tərəfindən idarə edilir. Şirkət bütün fəaliyyətlərini milli və beynəlxalq qanunvericilik, idarəçilik və standartlara uyğun təşkil edir. Bu uyğunluğu effektiv şəkildə əldə etmək üçün şirkət xüsusi idarəetmə sistemi hazırlamış, standartlara uyğun olaraq sənədləşdirmiş və tətbiq etməkdədir. "MEP CERT MMC" beynəlxalq səviyyədə müstəqil, bitərəf xidmət təklif edir. "MEP CERT MMC" həyata keçirdiyi sənədləşdirmə işi ilə ciddi məşğul olur və bu sahədə ən yüksək keyfiyyət təklif edir. Şirkət fəaliyyət göstərdiyi bütün sahələrdə dil, din, irq, siyasət və coğrafi ərazi fərqini nəzərə almadan bütün müraciətlərə öz siyasət və hədəflərinə uyğun olaraq cavab verir.
"MEP CERT MMC" 2004-cü ildə Azərbaycanın paytaxtı Bakıda yaradılmış və UKAS (Böyük Britaniya) tərəfindən akkreditasiya olunan Global İnternational Certification şirkətinin Azərbaycanda rəsmi nümayəndəsidir. Şirkət 153 ölkədə tanınan keyfiyyət idarəetmə və digər sistemlər üçün sertifikatların verilməsini təmin edir, eyni zamanda tədrislərin verilməsi və auditlərin keçirilməsini həyata keçilməsini təmin edir.
**www.mep-cert.com**

**Mətanət A**
Elxan Bəşirov – Şirkətin Prezidenti
Tel: (012) 3429933, 3429388
Faks: (012) 4429300
E-mail: info@matanata.com
Ünvan: Bakı-Sumqayıt magistral yolu. 13.5 km.
"Mətanət A" şirkəti Azərbaycanın və regionun ən böyük və ən innovativ inşaat materialları istehsal edən şirkətidir. Ən son texnologiyalarla təchiz olunmuş zavodlarda istehsal edilən məhsullar artıq ölkəmizdə və onun hüdudlarından kənarda istehlakçıların böyük rəğbətini qazanmışdır. Azərbaycanda ilk dəfə olaraq NANO texnologiyası əsasında fəaliyyət göstərən «Keramika Yapışdırıcıları Zavodu» toz və maye əsaslı məhsullar, 2004-cü ildə əsası qoyulan Qafqazda ilk müasir tipli gips zavodu olan «AĞDAĞ Gips Zavodu» gips əsaslı məhsullar, «Beton Qatqıları Zavodu» isə beton qatqıları, səth sərtləşdiriciləri, üyütməyə yardımçı məhsullar və bu kimi digər məhsulların istehsalını həyata keçirir.
Şirkət 3 sistemdə, 22 mal qrupunda fəaliyyət göstərməklə 200-dən çox ticarət markasına və 1000-dən artıq mal çeşidinə malikdir.
**İnşaat sistemləri**

Keramika yapışdırıcıları, Aralıq doldurma qarşıqları, Təmir və ankraj qarışıqları, Hidroizolyasiya qarışıqları, İstilik izolyasiya məhsulları, Gips əsaslı məhsullar, Sement əsaslı suvaq məhsulları, Əhəngdaşı əsaslı məhsullar, Əhəng əsaslı məhsullar, PVA yapışqan məhsulları, Boya məhsulları, Astarlar, Səth qoruma və səth təmizləmə maddələri;

**Zəmin sistemləri**

Sement əsaslı səth sərtləşdiriciləri, Epoksid və poliüretan əsaslı döşəmə örtükləri, Özü yayılan şap məhsulları (self-levelling);

**Qatqı sistemləri**

Beton qatqıları; Harc qatqıları; Beton yardımçı məhsulları; Üyütməyə yardımçı məhsullar; Yeraltı inşaat yardımçı məhsulları.

**www.matanata.com**

**Mixaylo KM**

Kamran Mehdizadə – Direktor

Tel/Faks: (012) 3700192 / 3707571

E-mail: mixaylo.office@box.az

Ünvan: Əhmədli /M.Hadi küç.7

“Mixaylo” kiçik müəssisəsi 1993-cü ildən fəaliyyətə başlamışdır. Müəssisə əsasən müxtəlif növ texniki malların, inşaat materiallarının alınması və satışı ilə məşğuldur. Bu sahədə bazarda 15 ildir ki, çalışır.

Müəssisə xaricdən (Rusiya Federasiyası, Türkiyə, Birləşmiş Ərəb Əmirliklər, Almaniya, İngiltərə və s.) müxtəlif növ texniki malları, inşaat materialları və s. idxal edir. Belə ki, “Mixaylo” k/m müxtəlif növ dəzgah və çilingər məngənələri üzrə Rusiya Federasiyası ”OAO Qlazovskiy zavod Metallist” zavodunun; ZAO “Konmaş” zavodunun buraxdığı bütün məhsullar; su tərəziləri və metrələr kimi əl alətləri üzrə Türkiyə Respublikası “Metresan Ölçü Aletleri Sanayii ve Ticaret A.Ş.” fabrikinin; eyni zamanda metal, mərmər kəsmə və yonma üzrə müxtəlif növ laqonda disklərinin, sumbata kağızlarının, fleks daşlama məhsulları üzrə “Egesan Aşındırıcı Taşlar Sanayii A.S.” fabrikinin və müxtəlif bolt-qayka, qrovell və s. üzrə “Bayraktar Bağlantı Elemanları ve makina montaj saplamaları”nın; konveyer lentləri, konveyer diyircəkləri və s. üzrə “Akkayalar Makina Ticaret Limited” Şirkətinin Azərbaycan Respublikasında distribütorudur. Həmçinin “Mixaylo” k/m Rusiya Federasiyasının ZAO “Polikom” zavodu ilə müxtəlif ventillərin və s. alınması üzrə əməkdaşlıq edir.

**"Modern Anadolu" Eğitim ve Turizm Hizmetleri Sanayi Tic. Limited şirketi**

Ömer Dönmez – Təmsilçi

Tel - faks: (012) 530 05 08

Ünvan: Alı Mustafayev 14

**“MOGOBS MTK” MMC**

Əbülfət Hüseynov – Direktor

Tel - faks: (012) 5967988

Ünvan: C.Hacıbəyli 32/10

E-mail: mogub@mogub.az

Şirkət 2004-cü ildə yaradılıb. Şirkət layihələndirmə işləri, mühəndislik xidmətləri və dizayn, təmir işləri, torpaq işləri, hidravlik mühəndislik işləri, dəmir-beton bərkitmə işləri ilə məşğul olur.

Şirkət BTC layihəsində $54000^3$ m sahəsi olan ərazidən palçıq qatının təmizlənməsi və ekskavasiyası; Bakı şəhərində yaşayış binasının tikiləcəyi $25000^3$ m ərazinin təmizlənməsi və ekskavasiyası işləri MOGOBS MTK tərəfindən icra edilib.
Qeyd edək ki, şirkət yük platformasının inşası, "Traiden 20" Sahil Divarının təməlinin qoyulması və möhkəmləndirilməsi, Sanqaçalda su təchizatı xətlərinin və şosselərin inşasını (torpaq işləri, drenaj borularının quraşdırılması, yol işləri, dəmir-beton işləri), Bakı Biskvit Fabrikinin təmir və yenidənqurma işlərini həyata keçirib.

**Mozart Kafesi**

Resul Doğan – Şirkət Sahibi
Tel: (012) 4981925
Ünvan: Ə.Əlizadə küç.2
Şirkət restoran və kafe biznesi ilə məşğuldur. Bakının mərkəzi hissəsində yerləşən Mozart Kafesi Türk və Avropa mətbəxi təklif edir. Mozart Kafesi yüksək keyfiyyətli xidməti ilə müştəri məmnunluğunu hər şeydən üstün tutur.

**MPG (Media Planning Group) Azərbaycan MMC**

Zaur İsmayılov – Baş menecer (050 223 77 77)
Tel: (012) 5973088 /91/92
Ünvan: S.Rəhimov 309, "World Business Centre"
E-mail: zaur.ismayilov@mpg-az.com
Havas Media (Beynəlxalq reklam və marketing kommunikasiyaları şəbəkəsi) qrupa daxil olan MPG şirkətinin fəaliyyət göstərdiyi sahə Reklam və Marketing sahəsidir.

Şirkətinin əsas məqsədi beynəlxalq arenada əməkdaşlıq etdiyi bir çox şirkətlərə Azərbaycanda da marketinq xidmətləri göstərməkdir

MPG beynəlxalq arenada 30 ildən çox iş təcrübəsi olan, biznes sahəsində optimal nəticələr qazanmaq üçün brendlərlə istehlakçılar arasında müvafiq əlaqələr yaradan media xidmətləri qrupudur. Adından göründüyü kimi, Media Planning Group - media planlaşdırma, media satınalmaları və reklam yerləşdirmə üzrə ixtisaslaşmış şirkət olaraq, dünyanın qabaqcıl media şirkətlərindən biri sayılan, Havas Media daxilində ən böyük şəbəkədir.

Şirkət hal - hazırda aşağıdakı beynəlxalq şirkətlərlə əməkdaşlıq edir:

Danone, Reckitt Benckiser, Hyundai, Kia, Evyap, Vestel

**NJT 2000**

Təyyar Şükürov– Müşahidə Şurasının sədri
Tel: (012) 4472646
Faks: (012) 4472647
E-mail: office@njt2000.com
Ünvan: Babək pr.43A
«NJT 2000» şirkəti 2000-ci ildə Türkiyənin «R-Plast» şirkəti tərəfindən 100% xarici sərmayə ilə yaradılmışdır. NJT2000" Firması plastik məhsullar istehsalında dünyada fəaliyyət göstərən ilk 100 firmanın siyahısına daxildir. Firma polietilen, polipropilen və polivinilxlorid xammaldan ümumilikdə 250 çeşiddə yüksək keyfiyyətli və müasir standartlara cavab verən məhsul istehsal

edir. Firmanın istehsal etdiyi bütün məhsulları uyğunluq və gigeyenik sertifikatları ilə təmin olunmuşdur.
Hazırda şirkətdə içməli və kanalizasiya su borusu və fitinqləri, təbii qaz, drenaj, dərin quyu və kabel borusu və fitinqləri, divar və tavanların üzlənməsində istifadə olunan plastik panel (lambri) və aksesuarlar istehsal edilməkdədir. Eyni zamanda firma tərəfindən qida sənayesi üçün müxtəlif təyinatlı qablar istehsal olunur.
**www.njtgorup.az**
**www.njt2000.com**

**Özkaya Group**
Osman Gezeker – Şirkət Rəhbəri
Tel: (012) 3705625/ 5700625
Tel/faks: (012) 4705625
Ünvan: Nizami rayonu, 526-ci küç, 24/10 məhəllə, (Katelni mexaniki zavoda bitişik)
*Mətbəx avadanlıqlarının sərgi salonu*
Tel: 496 98 56
Tel/faks : 418 94 70
E-mail: ozkaya_group@yahoo.com ; ozkaya_group@hotmail.com
Ünvan: Nərimanov rayonu,Təbriz küçəsi 6
Şirkət Azərbaycanda tikinti materialların, və paslanmayan sənaye tipli mətbəx avadanlıqlarının, hər növ soyuducuların, marketlər üçün stellaj, soyuducu vitrinlərin istehsalı və quraşdırılması, müasir tipli çörək zavodları üçün fırınların satışı və quraşdırılması, izolyasiya materiallarının istehsalı və satışı, eyni zamanda hər növ inşaat avadanlıqlarının idxalı ilə məşğuldur.
**www.ozkaya.az**

**PDF**
(Project Design Factory)
Ercumet Ersoy - Direktor
Tel: (012) 4899896/97
Ünvan: Xətai prospekti 34
İnşaat şirkəti tikiləcək obyektin memarlıq, inşaat, daxili interyer, elektrik, mexanik, peyzaj proyektləndirmə işlərinin hamısını eyni zamanda vaxtında, keyfiyyətli, iqtisadi cəhətdən sərfəli şərtlərlə müştəri tərəfindən istendiyi təqdirdə məsuliyyətlə yerinə yetirə bilər.

**Peri Kalıp ve İskeleleri LTD**
Salim Dilmen – Direktor
Tel: (012) 5980822 /4938004
Faks: (012) 598 08 22
E-mail: peribaku@peri.com.tr
Ünvan: 28 may küç. ev 72 mənzil 27
PERİ Qəlib və Bünövrə Skeletləri Sənaye Ticarət Limited Şirkəti təqribən 3 ildir ki, Bakı şəhərində hər növdə inşaat sahəsi üzrə xidmət göstərir. PERİ Federal Almaniyanın Ulm şəhərinin Weissenhorn qəsəbəsində 100.000 $m^2$-dan çox bağlı, ümumi fabrika sahəsi isə 500.000 $m^2$-dən çox olan ehtiyat və açıq sahədə qurulmuş dünyanın ən boyük qəlib firmasıdır.
**www.peri.com.tr**

**Poyraz Advertising MMC**
Turhan Hakan Poyaz – Prezident
Tel: (012) 5106102/03
Faks: (012) 5106105
E-mail: poyraz@poyraz.com / info@otelity.com
Ünvan: N. Nərimanov Pros. 127/1
Poyraz Advertising Türkiyə Reklam şirkətinin Azərbaycandakı şöbəsidir. Bir tam xidmət reklam agentliyi olan şirkətin xidmət sahəsinə; marka yaratma və idarə etmə, Satış və marketinqlə bağlı strateji planlaşdırma və inkişaf etdirmə, TV və radio reklam çarxlarının istehsalı, TV, Radio, qəzet, jurnal, açıq hava reklamlarının (reklam lövhələri, işıqlı reklam, işarə lövhələri, yönləşdirmələr, konstruksiyalar) sərgi stendlərinin istehsalı, TV, radio, qəzet, jurnal, açıq hava reklamlarının dizaynı və yerləşdirilməsi, qrafik tərtibat, PR fəaliyyətləri (açılışların, prezentasiya, konsert, müsabiqə, TV proqramçılığı, tanıdım toplantıları, mətbuat konfranslarının təşkili), sərgi xidmətləri, prezentasiya filmlərinin çəkilişi və/və ya yığılması daxildir.
Şirkət bünyəsindəki OTELİTY şirkəti vasitəsi ilə, otellərin quruluşundan etibarən ehtiyac duyulan mal və xidmətləri təmin edir.
**www.poyraz.com**
**www.otelity.com**

**Rabitəbank ASC**
Zakir Nuriyev – Müşahidə Şurasının Sədri
Tel: (012) 5984488
Faks: (012) 4971101
E-mail: rb@rabitabank.com
Ünvan: 28 May küç 33
1993-cü ildə Rabitə Nazirliyinin nəzdində ixtisaslaşdırılmış bank kimi fəaliyyətə başlayan Rabitəbank, tezliklə iqtisadiyyatın müxtəlif sahələrini əhatə etməklə öz fəaliyyət dairəsini genişləndirmiş və universal banka çevrilmişdir. Hazırda Rabitəbankın müştəriləri ticarət, istehsalat, tikinti, kənd təsərrüfatı, nəqliyyat, kommunikasiya və başqa sahələri təmsil edən müəssisələrdir. Eyni zamanda, bank fiziki şəxslərə də bütün növ maliyyə xidmətləri göstərir.
Fəaliyyət göstərdiyi 17 il ərzində Rabitəbank ölkənin iri bankları arasında mövqeyini qoruyub saxlamaqla yanaşı, 20 filialdan ibarət xidmət şəbəkəsini yaradaraq, Sumqayıt, Quba, Qusar, Xaçmaz, Lənkəran, Gəncə, Şəmkir, Şirvan, Şəki, Naxçıvan, Şamaxı, Ağcabədi və Kürdəmir daxil olmaqla ölkənin 14 regionunda təmsil olunmuşdur.
Beynəlxalq maliyyə institutları ilə işgüzar əməkdaşlıq və ümumi sayı 30 mindən çox müştəriləri, bankın gələcəkdə də uğurlu inkişafı üçün möhkəm bünövrə yaratmaqdadır.
**www.rabitabank.com**

**Bazarstore MMC**
Tel: (012) 4903200/02
Faks: (012) 4903201
Ünvan: Babək pr., 1129-cu məhəllə
Pərakəndə və topdan ticarət xidməti ilə məşğul olmaqdadır.

**R.I.S.K. Elmi Istehsalat Şirkəti**
Anar Əligülov – Direktor
Tel: (012) 4973737
Faks: (012) 4981993
Ünvan: Rəşid Behbudov küç., 59
R.I.S.K. Elmi İstehsalat Şirkəti İnformasiya Texnologiyaları sahəsində kompleks çözümlər hazırlayan və təqdim edən bir şirkətdir. Şirkət telekommunikasiya operatorları, banklar və iri nəqliyyat müəssisələri üçün informasiya infrastrukturunun yaradılması, həmçinin dövlət müəssisələri üçün e-hökumət həllərinin hazırlanması üzrə ixtisaslaşmışdır. R.I.S.K. Şirkəti 1993-cü ildən etibarən fəaliyyət göstərir və hal-hazırda şirkətdə 220-dən artıq mütəxəssis çalışır. Şirkətin fəaliyyəti 2003-cü ildə İSO 9001:2000 keyfiyyət sertifikatına layiq görülmüşdür. R.I.S.K. Elmi İstehsalat Şirkəti IBM, Cisco, Dell, SUN Microsystems, Emerson, Avaya, Microsoft, Oracle və digər dünya miqyaslı şirkətlərin Azərbaycanda rəsmi tərəfdaşıdır.
**www.risk.az**

**Saga Gəmi-Təmir-Tikinti Şirkəti**
Akyıl İmre – Müşahidə Şurasının üzvü
Tel: (012) 4658214
Faks: (012) 4936927
E-mail: ataimre@gmail.com
Ünvan: A.Cəlilov 6/16, A
2002-ci ildən, “SAQA Gəmi Təmiri” şirkəti (“SAGA Shiperpair” CO), Qazaxstanda tərəf müqabili olan “Saqındı” müəssisəsi ilə birlikdə, Aktau (Qazaxıstan Respublikası) şəhərində - “SAQA ATAŞ” Məhdud Məsuliyyətli Yoldaşlıq Müəssisəsini yaratmışdır. “SAQA ATAŞ” MMYM az müddət ərzində, tərkibində yanalma körpüləri və gəmi qaldırma qurğuları, üzən yükqaldırıcı qurğular, yedək gəmiləri və s. olan xüsusi təmir bazasını yaradıb. Qazaxıstan bölgəsinin gəmi təmiri biznesində “SAQA ATAŞ” MMYM liderdir və uğurla inkişaf etməkdədir.
**www.saga-service.com**

**Space MTRŞ**
Vaqif Mustafayev – Prezident
Tel: (012) 4921256
Faks: (012) 4927665
E-mail: info@spacetv.az
Ünvan: H.Cavid pr.8
Space Müstəqil Teleradio Şirkəti 1997-ci ildən fəaliyyət göstərir. Şirkət televiziya və radio yayımını həyata keçirir.
**www.spacetv.az**

**Sultan's restoranı**
Erdinç Koşkun – restoranın rəhbəri
Tel: (012) 5980555
Faks: (012) 5980666
E-mail: erdinc@sultans.az
**www.sultans.az**

Ünvan: Xəqani 10

Türk restoranı olan Sultan's ət yeməkləri üzrə ixtisaslaşmış və Türkiyənin kabablarını, salatlarını, özəl Türk şirniyyatlarını, ayrıcaTürkiyədən gətirilmiş Aralıq dənizi, Qara dəniz və Mərmərə dənizinin məşhur balıqlarını müştərilərə böyük zövqlə təqdim edir.

Restoran ilin 365 günü saat 12:00-dan 24:00-a qədər açıq olur.

- 1-ci mərtəbə, 2-ci mərtəbə və VİP salonları ilə eyni anda 350 adama xidmət verə bilinir.
- Uşaqlar üçün uşaq oyun salonu mövcuddur.
- İdman oyunlarını böyük ekranlı televizorlarda izləmə imkanı vardır.
- 2-ci mərtəbədə həftənin beş günü pianino sədası altında dincəlmək imkanı vardır.

Gigiyena Sultan's restoranının ən çox diqqət etdiyi vacib məsələlərdən biridir. Bütün işçilər xüsusi olaraq seçilmiş və yetişdirilmişdir. Qiymətləri də çox münasib olan bu restoranda gülərüzlü işçi heyəti ilə hamı özünü rahat hiss edəcək.

**TAIS İKF**
Rəfail Şirinov – Baş Direktor
Tel: (012) 5142217/ 5142721/ 5672881
Faks: (012) 5142167
E-mail: remservices@azdata.com
Ünvan: Ələsgər Qayıbov 5

“Remservices” adı ilə biznes fəaliyyəti göstərən TAIS İstehsal və Kommersiya Firması, 1998-ci ildə 100% yerli resurslardan istifadə olunmaqla kapitallaşmış və fəaliyyət göstərən Azərbaycana məxsus müəssisədir. “Remservices” şirkətinin missiyası həm Azərbaycanda, həm də beynəlxalq arenada fəaliyyət göstərən biznes və sənaye müəssisələrinin tələblərinə cavab verən yüksək keyfiyyətli xidmətlər təmin etməkdən ibarətdir.

1998-ci ildə təsis edilən zaman “Remservices” öz fəaliyyətini Bakıda yerləşən ofis komplekslərində çalışan işçiləri yeməklə təmin edərək iaşə xidmətləri göstərmək istiqamətində cəmləhdirmiş ilk yerli müəssisələrdən biri olmuşdur. Tezliklə “Remservices” şirkətinin davamlı keyfiyyət göstəricilərinə malik səmərəli və nəzakətli xidmətlər göstərmək bacarığı göstərilən xidmətlərin miqyasının, sifarişçilərin növünün və sayının artması ilə nəticələndi. “Remservices” tərəfindən təklif edilən cari xidmətlərə aşağıdakılar daxildir:

<u>Quruda və dənizdə iaşə xidmətləri</u>

<u>Tikinti sahələri və düşərgələrdə iaşə xidmətləri</u>

<u>Camaşırxana xidməti</u>. “Remservices” standartlara cavab verən yüksək keyfiyyətli camaşırxana xidmətləri göstərmək imkanına malikdir. Bu xidmətlərə sifarişçinin işçi heyətinin geyimlərinin və paltarlarının, dəsmallarının və nahar otağında istifadə olunan parçalarının yuyulması və s. bu kimi işlər daxil ola bilər.

<u>Ev təsərrüffatı xidmətləri</u>. “Remservices” aşağıdakı xidmətləri yüksək standartla təmin etmək iqtidarındadır: yüksək keyfiyyətli yataq ləvazimatlarını, məhrəbaları və s. təmizləmək, yumaq və ütüləmək, saxlamaq və yeniləri ilə əvəz etmək.

Maddi-texniki təchizat. “Remservices” avadanlıq, qida məhsulları, təmizlik məhsulları və s. bu kimi mal və materialları geniş çeşidlə təchiz etmək imkanına malikdir.

Təmizlik xidmətləri. “Remservices” təmizlik xidmətləri göstərir, o cümlədən sənaye obyektlərinin, binaların və otaqların təmizlənməsi, xalçaların, mebel və pəncərələrin yuyulması və s. bu kimi xidmətlər ilə məşğul olur.
Tullantıların toplanması. “Remservices” binalardan bütün tullantıları toplaya və onları müəyyən olunmuş yerdə müvafiq zibil qablarına yerləşdirə bilər.
Ziyanvericilərlə mübarizə. TAIS “Remservices” istənilən yerdə müqavilə şərtlərinə uyğun olaraq zərərvericilərin və gəmiricilərin yayılmasının qarşısının alınması üzrə Zərərvericilərlə Mübarizə Proqramının düzgün icra olunmasına zəmanət verir. Zərərvericilərlə mübarizə dezinfeksiya, dezinseksiya və deratizasiya fəaliyyəti göstərmək üçün müvafiq rəsmi icazəyə malik səriştəli subpodratçı tərəfindən aşağıdakı qaydada həyata keçirilir:
“Remservices” şirkətinin işçi heyətinə zərərvericilərlə mübarizə üzrə, məs. uçan həşəratların monitorinqi üzrə müvafiq treyninqlər və praktik seminarlar, eləcə də sanitar-gigiyena rejimi üzrə treyninqlər keçirilir;
Həşaratların və gəmiricilərin bayırdan icəri daxil olmasına və yayılmasına şərait yaradan amillər müəyyən olunur və onların aradan qaldırılması üçün əməli tövsiyyələr verilir;
Mətbəx tullantıları və qida qalıqlarının mətbəxdən çıxarılması və onların mətbəx ərazisindən maksimal məsafədə saxlanılması üzrə müvafiq tövsiyyələr verilir;
Mətbəxdə, bufetdə, anbarlarda və mətbəxi əhatə edən ərazilərdə təhlükəsiz kimyəvi maddələrdən istifadə etməkə dezinfeksiya, dezinseksiya və deratizasiya işləri təsdiq olunmuş qrafik əsasında icra olunur;
“Remservices” müntəzəm olaraq yenilənən iş qrafiki tərtib edir;
Dezinfeksiya və deratizasiya işlərinin insanların sağlamlığı və təhlükəsizliyi üzərində minimal təsir təmin edilir.

**Tekfen İnşaat ve Tesisat A.Ş**
Yener Aydın – Direktor
Tel: (012) 4925725 / 4925835
Faks: (012) 4925727
E-mail: yaydin@tekfen.com.tr,
yaydin@azfen.com
Ünvan: Azərbaycan, AZ1001, Bakı, İstiqlaliyyət küç. 31, 4-cü mərtəbə
TEKFEN İnşaat ve Tesisat A.Ş. Türkiyənin və regionun ən qabaqcıl inşaat şirkətlərindən biridir. Təsis edildiyi 1956-cı ildən etibarən, 50 ildən artıq bir müddət ərzində öz zəngin təcrübəyə malik işçi qüvvəsi, böyük maşın-mexanizm, avadanlıq parkı və düzgün qurduğu fəaliyyət siyasəti sayəsində TEKFEN İnşaat ve Tesisat A.Ş. inşaat sektorunda böyük nailiyyətlər əldə etmişdir.
Şirkət bu gün də, həm Türkiyədə, həm də dünyanın müxtəlif ölkələrində, o cümlədən, İraqda, Küveytdə, Səudiyyə Ərəbistanında, Yəməndə, Qatarda, Əmmanda, Mərakeşdə, Azərbaycanda, Gürcüstanda, Qazaxıstanda, Özbəkistanda, Rusiya Federasiyasında, Bolqarıstanda, Almaniyada, bir-birindən fərqli və mürəkkəb inşaat sahələrində öz səmərəli fəaliyyətini davam etdirir və həyata keçirdiyi bütün layihələri uğurla başa vuraraq, sifarişçilərinin rəğbətini qazanır.
TEKFEN İnşaat ve Tesisat A.Ş., Azərbaycanın inşaat bazarına çox böyük uğurla uyğunlaşa bilmiş, bu bazarda 15 ildən artıq bir müddət ərzində müxtəlif həcmli layihələrə imza atmış və həyata keçirmişdir.
Hal-hazırda, TEKFEN İnşaat ve Tesisat A.Ş.-də çalışan peşəkar və ixtisaslı kadrlar sifarişçilərin daim dəyişən tələblərini ödəməyə çalışırlar. İşçi qüvvəsi bütünlükdə iş yükündən asılıdır. Azərbaycanda həyata keçirdiyi layihələrə TEKFEN İnşaat ve Tesisat A.Ş., subpodratçılar daxil olmaqla, minlərlə işçi cəlb etmişdir və onlar üçün layihələr boyunca effektiv təlim proqramı təşkil edilmişdir. Şirkətin əldə etdiyi nailiyyətlər, bizə, əsas etibarilə regionda fəaliyyət göstərən Beynəlxalq Neft Konsorsiumu sıralarında böyük sifarişçi maraqlarının artmasına səbəb oldu.
Aşağıda, TEKFEN İnşaat ve Tesisat A.Ş.-nə Azərbaycanda həvalə edilmiş layihələr sadalanmışdır:

- Səngəçal Terminalı layihəsi-Mexanika İşləri, Elektrik Avadanlıqlarının və Nəzarət-Ölçü Cihazlarının Quraşdırılması.
- Səngəçal Terminalında neftin saxlanması üçün 4 ədəd Çənin tikintisi layihəsi.
- ABƏŞ Qərb Marşrutu -Yeni və Bərpa Edilən Boru Xətti layihəsi.
- ÇIRAQ-1 Təzyiqlə Suvurma layihəsi.
- Səngəçal Terminalının Genişləndirilməsi, İlkin İnşaat İşləri layihəsi.
- Səngəçal Terminalının Genişləndirilməsi, Əsas İnşaat İşləri layihəsi.
- CWP (Kompressor və Suvurma Platforması) Üst Tikililərinin Emalatı layihəsi.
- Abşeron Yarımadasında, Qaradağ – Sumqayıt arasında Azəriqaz üçün tikilən Təbii Qaz Boru Xətti və Kompressor Stansiyası layihəsi.
- STB-1 Barjasının Modernləşdirilməsi İşləri layihəsi.
- PCWU (Texnoloji Proseslər, Kompressiya, Suvurma və Məişət Avadanlıqları) Platforması layihəsi.
- Səngəçalda Qaz İxracı Terminalının tikintisi layihəsi.
- COP-WC (Çıraq Neft Layihəsi - Qərbi Çıraq Platformasının Üst Tikililərinin, Qazma Qurğularının Emalatı və Yaşayış Bloklarının İnteqrasiyası) layihəsi.
- ARDNŞ-nin Yeni İnzibati Binasının tikintisi layihəsi.

Öz fəaliyyətlərində qlobal keyfiyyət standartlarına əməl edən şirkətimiz daim inkişaf edir, gündən-günə böyüyür və fəaliyyət sahələrini daha da genişləndirir.

Hal-hazırda, TEKFEN İnşaat ve Tesisat A.Ş.-nin fəaliyyət sahəsi boru xətlərinin, nasos stansiyalarının, sənaye müəssisələrinin, neft çənlərinin, neft və kimya komplekslərinin, neft emalı müəssisələrinin, enerji mərkəzlərinin, su rezervuarlarının, dəmir yollarının, avtomobil yollarının, körpülərin, tunellərin, dəniz terminallarının, hava limanlarının, peyk şəhərlərinin, biznes mərkəzlərinin, hərbi şəhərciklərin və digər obyektlərin tikintisini və onların açar-təhvilini əhatə edir.

TEKFEN İnşaat ve Tesisat A.Ş.-nin fəaliyyətləri haqqında daha dolğun məlumatları daim yenilənən internet səhifəmizdən əldə etmək olar:

**www.tekfen.com.tr**

**Turquoise MMC**

Ali İhsan Genç – Təsisçi
Tel: (012) 5145521
Faks: (012) 5145524
E-mail: aig@turquoise-az.com
Ünvan: Babək küç.2269

TURQUOISE MMC şirkəti 2002-ci ildə yaradılmışdır. Şirkət inşaat sektorunda BASF YKS, SERPO, PALME, POLYFIBERS v’ DRAMIX-in Azərbaycandakı yeganə təmsilçisi və satıcısıdır. Şirkətin təmsil etdiyi markaların çox uzun təcrübə potensialı vardır. Bu markaları daşıyan və hər biri keyfiyyəti ilə özünü on illər boyu tanıtmış, məhsul sayının isə minlərlə növə çatdırmış şirkətlər olaraq ifadə edilməkdədir.

**www.turquoise-az.com**

**Viola MMC (AVRASİYA KLİNİKASI)**
"Avropa tərəqqisi - Asiya ənənəsi!"
Qafur Cəfərov- təmsilçi
Tel: (+994 12) 563 00 14
Faks: (+994 12) 563 00 24; 563 00 25
Mob: (+994 50) 301 02 96
E-mail: info@avrasiya.az
Ünvan: Bakı şəhəri, Azadlıq pr. 189.
Avrasiya klinikası 2007-ci ilin aprel ayinda fəaliyyətə başlamışdır. Klinikada poliklinika-diaqnostika və cərrahi stasionar fəaliyyət göstərir. Klinikamızda beynəlxalq standartlara cavab verən cihaz və avadanlıqlar quraşdırılmışdır. Türkiyə, Rusiya və Almaniyada təkmilləşdirmə kursları keçmiş mütəxəssislərimiz tərəfindən dəqiq diaqnostika və müvafiq müalicələr aparılır.

**Türk Hava Yolları**
Mehmet Akkaya – Baş Direktor
Tel: (012) 4977300
Faks: (012) 4970027
Ünvan: Hüsü Hacıyev küç.11
Şirkət beynəlxalq sərnişin və yük daşıma sahəsində xidmət göstərir.

**VORX Group**
Rəşad Xanlarov-
Tel: (012) 436 76 48
Faks: (012) 539 92 84
Ünvan: C.Cabbarlı, 44, Caspian Plaza 1, 7-ci mərtəbə

VORX Group 2010-cu ildə iki media VxR Production and TORX Media Group şirkətlərinin birləşməsi nəticəsində yaranmışdır. Şirkətin missiyası müştərilərə peşəkar səviyyədə etibarlı, yenilikçi xidmət təmin etməkdir.

**YapıKredi Bank**
Mustafa Coşkun Bulak – İdarə Heyətinin Sədri və Baş Direktor
Tel: (012) 4977795
Faks: (012) 4970276
Ünvan: C. Cabbarlı küç.32/12
Koçbank Azərbaycan LTD QTS Bankı Türkiyənin nüfuzlu sənaye qrupu olan Koç Holdinginin sahib olduğu Koçbank A.Ş. (80%) və Dünya Bankının Beynəlxalq Maliyyə Korporasiyasının (20%) ortağı ilə qurulmuşdur.
Koçbank Azərbaycan Ltd Azərbaycan Respublikası Milli Bankının tələblərinə uyğun olaraq 5,000,000 (beş milyon) ABŞ Dolları həcmində nizamnamə Fondu ilə təşkil olunmuş, 21 oktyabr 1998-ci il tarixdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən qeydiyyata alınmış və bank fəaliyyəti üçün tələb olunan lisenziyanın alınması üçün Milli Banka müraciət etmişdir. Müraciət müddəti ərzində bank personalı işə alınmış, onlara Türkiyənin Koçbank A.Ş. bankında uzun müddətli bank işi ilə əlaqədar müvafiq təlimlər keçirilmişdir, fəaliyyət göstəriləcək yerdə təmir və hazırlıq işləri tamamlanmışdır. 11 Yanvar 2000-ci il tarixdə 243 saylı bank fəaliyyəti ilə məşğul olmaq üçün Azərbaycan Respublikası Milli Bankından lisenziya alınmışdır. Bank Azərbaycan Milli Bankı tərəfindən verilmiş lisenziyalarda göstərilən əməliyyat növlərini həyata keçirir.

2001-ci ilin sonlarında Koç Grupun maliyyə sektorunda fəaliyyət göstərən şirkətlərini birləşdirmək və səhmlərin böyük bir hissəsini ələ keçirərək effektivliyi artırmaq məqsədi ilə Koç Grupu və Uni Credito İtaliano SPA arasında "Koç Maliyyə Xidmətləri A.Ş." üzrə 50%-50% əməkdaşlığa dair niyyət protokolu imzalandı.
Əməkdaşlıq müqaviləsi Milanda 2002-ci ilin may ayında imzalanmışdır və bu proses 2002-ci ilin oktyabr ayının 21-də tamamlanmışdır. Bunun nəticəsində, Koç Grupunun maliyyə sektorunda olan səhmləri (Koçbank, Koç Lease, Koç Faktoring, Koç Invest, Koçbank Nederland N.V., Koçbank Azərbaycan QTSB və Koç Aktivlərinin İdarə Edilməsi) "Koç Maliyyə Xidmətləri" və Uni Credito İtalyano arasında bölüşdürülmüş və Koç Grupu "Koç Maliyyə Xidmətləri"nin bərabər hüquqlu ortağı olmuşdur.
2005-ci ilin sentyabr ayında Türkiyədəki Yapı Kredi Bankası A.Ş.-də həmçinin Koç Maliyyə Xidmətləri ailəsinə daxil olmuşdur.
2004-cü ilin Avqust ayında Koçbank Azərbaycan QTS Bankı Nizamnamə Kapitalını 2,000,000 (iki milyon) ABŞ Dolları məbləğində artırmışdır.
Koçbank Azərbaycan 2007-ci ilin əvvəlindən etibarən fəaliyyətini "Yapı Kredi Bank Azərbaycan" QSC adı ilə davam etdirir. Bank adının dəyişdirilməsi təsisçisi olan strukturun (Koçbank) digər tərəfdaş bankla (Yapı Kredi Bankası) birləşməsi ilə əlaqədardır. Beynəlxalq arenada bankların birləşməsinin başlıca səbəbi gərgin rəqabət şəraitində bazar paylarının artırılması və bununla bərabər daha iri layihələrin reallaşdırılması üçün səhmdarların sərmayə qoyuluşu imkanlarının genişləndirilməsidir.
Qloballaşma prosesində Türk bankçılıq bazarında Koçbank və Yapı Kredi Bankasının birləşməsi də bu təməl üzərində qurulmuşdur. Bank xidmətləri sahəsində Yapı Kredi Bank (Azərbaycan) QSC-nin təklif etdiyi məhsul çeşidi Azərbaycan Respublikası qanunvericiliyinə uyğun şəkildə artıracaq və geniş çeşidli məhsulların, texnoloji yeniliklər və üstünlükləri ilə maliyyə xidmətləri bazarında layiq olduğu yeri tutacağına əmindir. Bu hədəfi reallaşdırmaq üçün fəaliyyəti aşağıdakı istiqamətləri əhatə edir:
a) beynəlxalq sərmayə bazarında fəal iştirak;
b) korporativ və fərdi müştərilərin ehtiyaclarının ödənilməsi;
c) layihələrin maliyyələşdirilməsində beynəlxalq qaynaqlardan Azərbaycan bazarına uyğun şəkildə istifadə;
d) şöbələrin sayının artırılması yolu ilə daha çox müştəri xidmətləri nöqtələrinin qurulması;
e) risklərin idarə olunması üzrə beynəlxalq standartlarla Azərbaycan kredit bazarında daha fəal mövqe tutmaq.
Bankın rəhbər strukturu Təsisçilərin (Səhmdarların) Ümumi Yığıncağı, Müşahidə Şurası, Audit Komitəsi və İdarə Heyətindən ibarətdir. Müşahidə Şurasının Sədri Tayfun Bayazıt; üzvləri - Alessandro Decio, Faik Acikalin, Marco Cravario, Mert Guvenen; Audit Komitəsinin Sədri Ekin Arca Kireli; üzvləri - Abdullah Gecer və İdarə Heyətinin Sədri Mustafa Coşkun Bulak.
"Yapı Kredi Bank Azərbaycan" QSC 2009-cı il noyabr ayının sonuna aktivlərinin həcmini 155,318,380 manat məbləğinə qədər artdırıb. Hesabat tarixinə bankın depozit portfeli (bank depozitləri daxil) 111,322,516 manat, kredit portfeli (bank kreditləri daxil) isə 26,826,813 manat təşkil edib. Bank 1,296 hüquqi və 17,680 fiziki şəxsə müxtəlif növ bank xidmətləri göstərir. Bu gün bankın Nizamnamə Kapitalı 27,209,400 manat təşkil edir.
Hal-hazırda Bankın Gəncə şəhərində "Gəncə" filialı Bakı şəhərində isə "28 May", "Azadlıq", "Əhmədli" və "Səbail" filialları, "Elmlər Akademiyası" şöbəsi və bir müştəri xidmətləri departamenti fəaliyyət göstərir.
Bank işçilərinin ümumi sayı 134 nəfərdir.
Bankın Almaniya, ABŞ, İtaliya, Türkiyə, Hollandiya və Rusiyada müxbir hesabları var.
Bankın vəzifələri sırasında məhsul çeşidinin genişləndirilməsi və yeni texnologiyaların tətbiqi yer almaqdadır. Bankın 13 ATM və 59 POS Terminalı mövcuttur. Gələcəkdə bu istiqamətlərdə bankın böyük planları var. 2009-cı ildə Azərbaycanda bank xidmətlərindən yararlanan şirkətlər,

iş adamları, fiziki şəxslər "Yapı Kredi Bank Azərbaycan" QSC-nın respublikanın maliyyə xidmətləri bazarına gətirəcəyi yeniliklərin faydasını yaxın vaxtlarda özlərində hiss edəcəklər.
**www.yapikredi.com.az**

**Yves Rocher (Beka Trading Company)**
**Bünyamin Kakat- Baş direktor**
Tel: (012) 4981298
Faks: (012) 4981298
Ünvan: İstiqlaliyyət 45

Dünyanın ən məşhur dizayner, modelyer və kosmetoloqlarından biri İv Roşe həyatının böyük hissəsini "bitki kosmetikası"nın yaradılmasına həsr edib. Onun planına görə, "Yves Rocher"in məhsulları ancaq təbii inqridientlərdən hazırlanmalı və geniş istehlakçı kütləsi üçün əlçatan olmalıymış.
Roşe markası 1959-cu ildə yaradılıb. 1969-cu ildə isə onun ilk mağazası açılıb - buna qədər məhsullar poçt vasitəsilə göndərilirmiş. Hazırda "Yves Rocher"də 15 mindən çox adam çalışır, onun müəssisələri 30-dan çox ölkədə var, korporasiyanın illik dövriyyəsi 2 milyard avrodur. Məşhur korporasiyanın yaradıcısı 80 yaşında dünyasını dəyişib. Bundan sonra şirkətə başçılıq edəcək növbəti şəxsin adı müəyyənləşib. İv Roşenin yerinə onun nəvəsi, 31 yaşlı Bri Roşe gətirilib.
1996-cı ildən Bakıda fəaliyyətə başlayan Yves Rocher kosmetika və parfumeriya mağazası artıq keyfiyyətli məhsulları ilə özünə xeyli əhatə dairəsi yığmışdır.